QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 079 (5551) 25 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Türkiyədə rəsmi səfərdədir

Səh 2




**Azərbaycanın sabit inkişaf modelinin QURUCUSU**



3

**Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir**



2

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yeni sədri kollektivə təqdim olunub**



4

**Azərbaycan Hökuməti ilə Dünya Meteorologiya Təşkilatı arasında əməkdaşlıq məsələləri müzakirə olunub**



4

**Milli Məclisin iclasında ombudsmanın illik məruzəsi dinlənilib**



6

**"Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün Ermənistandakı sağlam siyasi qüvvələrlə danışıqları davam etdirməyə hazırıq"**



4

11

**Sarkisyan rejimi və cinayətkar xunta çökdü**



12

**Ermənilər terror vasitəsilə özlərinin saxta soyqırım"larının ildönümünü qeyd edirlər!**



16

**"Barselona" Ardanı satır?**



# Prezident İlham Əliyev Türkiyədə rəsmi səfərdədir






**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfərə gəlib._**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankaranın "Esenboğa" hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısını Türkiyənin Baş nazirinin müavini Fikri Işık və digər yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad etdi.

Qeyd edək ki, Ankaradakı Heydər Əliyev Parkı 2004-cü ildə salınıb. 2012-ci ildə parkda əsaslı yenidənqurma işləri aparılıb. Nəticədə bu park Türkiyə paytaxtının ən gözəl istirahət məkanlarından birinə çevrilib. Parkın girişində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2004-cü il aprelin 4-də əkdikləri Xan çinarı ağacları və bu barədə məlumatın qeyd edildiyi mərmər lövhələr var. Bu istirahət məkanındakı şərait - mərasim meydanı, idman meydançası, uşaq əyləncə sahəsi bütün yaş qrupundan olan şəhər sakinlərinin öz zövqünə uyğun istirahət etmələri üçün imkanlar yaradır. Hazırda parkın ərazisində inşa edilən "Buta" Azərbaycanı Təbliğ Evinin tikintisi yekunlaşmaq üzrədir.

## Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir

*Prezident İlham Əliyev Rusiyanın Xarici Kəşfiyyat Xidmətinin direktorunu qəbul edib*

**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib._**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, bütün sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində də əməkdaşlıq uğurla davam edir. Görüşdə regional təhlükəsizlik məsələləri də müzakirə olundu.



Sergey Narışkin Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etdi, bunu Azərbaycan xalqının böyük etimadı kimi dəyərləndirərək seçkilərin nəticələrini həm də Azərbaycan xalqının qələbəsi kimi qiymətləndirdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev həm Azərbaycanda, həm də Rusiyada keçirilən son prezident seçkilərinə toxunaraq qeyd etdi ki, bütün bunlar Rusiya və Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətə xalqlarımızın verdiyi dəstəyin nümayişidir. Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.



# Azərbaycanın sabit inkişaf modelinin QURUCUSU

**_Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında, xalqın düşüncə tərzində və oyanışında müstəsna rol oynamış Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi kursu sayəsində Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlədib, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verib. Ulu Öndər Heydər Əliyev Şəxsiyyət, Siyasi Xadim, Xalqın dayağı olaraq Azərbaycan tarixində əsrin Lideri olduğunu təsdiqlədi. Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi idi ki, müasir dövrün tələbləri çərçivəsində dünya xalqlarına böyüklüyünü göstərə bildi._**

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə böyük sıçrayış baş verdi. Həmin tarixə qədər baş verən hadisələr, xalqı, bütövlükdə, uçuruma sürükləyən məqamlar-istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini doğrultdu. Ulu Öndərin məqsədyönlü siyasəti ilə Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövləti möhkəmlətdi və əbədiləşdirdi.

1993-cü ilin oktyabr ayının 3-də Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Prezident seçilməsi ilə Azərbaycanın həyatında yeni dövrün əsası qoyuldu. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Ulu Öndər Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Ulu Öndər Heydər Əliyevin böyüklüyünü ifadə edən amillərdən biri də odur ki, O, mövcud vəziyyəti yetərincə qiymətləndirə bildi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

## ÜMUMMİLLİ LİDERİN HAKİMİYYƏTƏ QAYIDIŞINDAN SONRA DÖVLƏTİMİZDƏ İNSAN HÜQUQLARININ TƏMİNATLI SİSTEMİNİN ƏSASI QOYULDU

Bu gün Azərbaycanın bütün sahələrdə Ulu Öndər Heydər Əliyev əzəməti görünür. Onun Şəxsiyyəti, məhz əməllərini yaşadan Azərbaycanın, bütövlükdə panoramasında özünü göstərir. Müasir həyatımızda Azərbaycana marağın artması Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində mümkün olub.

Ölkəmiz müstəqillik qazandıqdan sonra demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu, azadlığı, insan hüquqları, ədaləti və sülhü özünün inkişaf yolu seçib. Belə ki, insan hüquqları sahəsində qəbul edilmiş əksər beynəlxalq müqavilələrə qoşulub, eyni zamanda, bu sahədə mövcud beynəlxalq standartlara uyğun olaraq özünün dövlətdaxili qanunvericiliyini yaradıb. İnsan hüquqları amili Ümummilli Lider Heydər Əliyev fəaliyyətinin əsası olub, bu da bilavasitə Onun rəhbərliyi və təşəbbüsü ilə kifayət qədər normativ-hüquqi sənədlərin qəbul edilməsi ilə nəticələnib. 1993-cü ildə Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra dövlətimizdə insan hüquqlarının təminatlı sisteminin əsası qoyuldu. Azərbaycanın adı Şərqdə ölüm hökmünü ləğv edən ölkə kimi tarixə düşdü. 1993-cü ildə ölüm hökmü üzərində moratorium qoyuldu, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edildi. Bu, hələ ölkəmizin Avropa Şurasına üzv olmadığı vaxtlarda belə insan hüquqları sahəsində atılan ən mütərəqqi addımlardan biri idi. Azərbaycan BMT-nin insan hüquqlarının qorunmasına dair bəyannaməsinə və digər beynəlxalq konvensiyalara da qoşulmaqla, insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirdi.

Demokratikləşməni hüquqi dövlət quruculuğunun əsas meyarı kimi qəbul edən ölkəmizin insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi önəm verməsini 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiya da təsdiq edir. Bu Konstitusiya ilə Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət olaraq insan hüquqlarına böyük önəm verdiyini bir daha nümayiş etdirdi.

Ölkəmizdə insan hüquq və azadlıqlarına verilən böyük önəmin daha bir təzahürü Ulu Öndər Heydər Əliyevin 1998-ci il fevralın 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmandır. Konstitusiyada təsbit edilmiş insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılması üçün dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən bu Fərman bir sıra kompleks tədbirlərin həyata keçirilməsinə təkan verdi. Fərman əsasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı çərçivəsində isə qanunvericilik və institusional islahatlar həyata keçirildi. Həmçinin qeyd olunan Dövlət Proqramı əsasında, eləcə də ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq, 2002-ci ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) institutu təsis edildi.

## AZƏRBAYCAN İNSAN HÜQUQLARININ TƏMİNATI SAHƏSİNDƏ DÜNYAYA NÜMUNƏ OLA BİLƏCƏK MƏKANDIR

Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən insan hüquqları istiqamətində ciddi işlər görülür. Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri ilə sıx əməkdaşlıq edir. Belə ki, dövlətimiz insan hüquqları sahəsində 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və mühüm nüfuzlu beynəlxalq təşkilatların BMT, Avropa Şurası, Beynəlxalq Əmək Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Konfransı Təşkilatı və s. üzvüdür. Təkcə bir faktı qeyd etmək lazımdır ki, BƏT-in 70-ə yaxın Konvensiyasına qoşulan dövlətimiz həmin təşkilatın ən mühüm partnyorlarından hesab edilir. Azərbaycan insan hüquqlarının təminatında çox mühüm addım atıb. Ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Fərmanı ilə hər il iyunun 18-i ölkəmizdə "İnsan hüquqları günü" kimi qeyd edilir. Bu isə dövlətin özünün beynəlxalq, o cümlədən mülki cəmiyyət qarşısında öhdəliklərinə bir daha qayıtması və daim xüsusi yanaşması deməkdir.

Bildiyimiz kimi, 18 mart 2009-cu il tarixdə keçirilmiş referendum insan hüquqlarının təminatında yeni mərhələnin başlanğıcını qoydu. Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi, ilk növbədə, insan hüquqlarının daha real təminatının əsası olan hüquqi dövlət-sosial dövlət münasibətlərini meydana gətirmiş, Azərbaycan Respublikasının sosial dövlət kimi möhkəmlənməsini, dövlətimizin özünün vətəndaşları qarşısında daha ciddi öhdəlik götürməsinin qanunvericilik əsaslarını müəyyən etmişdir. Bütövlükdə, referendumla Konstitusiyaya edilən əlavə və dəyişikliklər Azərbaycan Respublikasında dövlət quruculuğunun yeni mərhələsinin başlandığını bildirmiş, insan hüquq və azadlıqlarının daha real və səmərəli təmininə şərait yaratmışdır. Bu gün də müxtəlif istiqamətlərdə insan hüquqlarının real təminatı sahəsində dövlətimiz yeni-yeni beynəlxalq sazişlərə qoşulur, kifayət qədər normativ-hüquqi aktlar qəbul edilir və ya mövcud normalar təkmilləşdirilir. Əsas məqsəd isə qloballaşma və beynəlxalq inteqrasiya dövründə insan hüquqlarının daha real təminatına və bu istiqamətdə həyata keçirilən uzunmüddətli tədbirlərin davamlılığına nail olmaqdır.

Hazırda Azərbaycanda insan hüquqlarının qorunması ilə bağlı 4 minə qədər qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu gün elə bir qrup yoxdur ki, onun müdafiəsi ilə məşğul olan QHT olmasın. Azərbaycandakı böyük təşkilatların Avropanın qeyri-hökumət təşkilatları assosiasiyası ilə əlaqələri mövcuddur.

Müasir dövrdə Azərbaycanda insan hüquqlarının təminatı sahəsində ölkəmiz dünyaya nümunə ola biləcək məkandır. Prezident İlham Əliyevin bir fikri də bizim üçün çox önəmlidir ki, fəaliyyətimizin əsasında insan amili durur və bütün fəaliyyətimizin məqsədi də Azərbaycan vətəndaşı üçün, onun bu gerçəklikdə rahat, əmin-aman yaşaması üçündür. Bugünkü Azərbaycan vətəndaşı hüquqlarını bilən və onun təminatı üçün hər bir şeyi tələb edən mübariz vətəndaşdır. Bu imkanı yaradan dövlətdir. Ümummilli Lider Heydər Əliyevin insan hüquqlarının qorunması, demokratik inkişaf istiqamətində həyata keçirdiyi siyasət Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunu çoxlu sayda qəbul edilən qərar və sərəncamlardan daha aydın görmək mümkündür.

Bugünkü mövcud vəziyyət, iqtisadi inkişaf, siyasi sabitlik, eləcə də, beynəlxalq aləmdə ölkəmizə inamın və marağın artması Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın diplomatik üstünlük əldə etməsi, məhz Ulu Öndər Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev yürütdüyü siyasət Azərbaycanın böyük nailiyyətlər əldə etməsinə səbəb olub.

Bu gün fəxarət hissi ilə deyə bilərik ki, Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası bəhrəsini verir və bu strategiya sayəsində dövlətimizin üçrəngli bayrağı dünyanın ən ali beynəlxalq qurumunun - BMT Təhlükəsizlik Şurasının üzvü kimi dalğalanır. Bu, Azərbaycan dövlətinin apardığı uğurlu siyasətin bəhrəsidir. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən uca kürsülərindən çıxış edərək, ölkəmizin maraqlarını müdafiə edir. Əlbəttə ki, bu uğura nail olunması üçün böyük işlər görülüb, dövlətimiz böyük yollar keçib.

Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yeni sədri kollektivə təqdim olunub



Aprelin 24-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yeni təyin olunmuş sədri Rövşən Rzayevi kollektivə təqdim edib və ona işlərində uğurlar arzulayıb. Komitədən AZƏRTAC-a bildiriblər ki, Komitənin yeni sədrini təqdim edən Ramiz Mehdiyev Rövşən Rzayevin keçdiyi həyat yolu və iş təcrübəsi barədə məlumat verib. Prezident Administrasiyasının rəhbəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkə əhalisinin ən həssas təbəqəsi olan qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün çox böyük işlərin görüldüyünü diqqətə çatdırıb və bu istiqamətdə işlərin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Ramiz Mehdiyev dövlətimizin başçısı tərəfindən qarşıya qoyulan vəzifələrə nail olmaq üçün Komitənin kollektivinə müvafiq məsləhət və tövsiyələrini verib.

Yeni təyin olunmuş Komitə sədri Rövşən Rzayev Azərbaycan Prezidenti İlham Əliyevin ona göstərdiyi yüksək etimada görə minnətdarlığını bildirib və qaçqın və məcburi köçkünlərlə bağlı qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcəyini bildirib.

Xatırladaq ki, Rövşən Şükür oğlu Rzayev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamı ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilib.

## Azərbaycan Hökuməti ilə Dünya Meteorologiya Təşkilatı arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov aprelin 24-də Dünya Meteorologiya Təşkilatının baş katibi Petteri Taalasla görüşüb.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Azərbaycan Hökuməti ilə Dünya Meteorologiya Təşkilatı arasındakı mövcud münasibətlərdən danışaraq əlaqələrin bundan sonra daha da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirib. Azərbaycanda gedən inkişaf prosesləri haqqında qonağa məlumat verən Baş nazirin müavini qeyd edib ki, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri üzrə vəzifələrin icrası və bütövlükdə ölkəmizin əhalisinin həyat səviyyəsinin yeni inkişaf pilləsinə qaldırılması üçün iqtisadiyyatımızın əsaslı surətdə islahatlaşdırılması, yeniləşdirilməsi konsepsiyası uğurla həyata keçirilir. İqtisadiyyatın şaxələndirilməsi, əsasən kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi məqsədilə bir sıra irimiqyaslı layihələr həyata keçirilir. Bütün bunlarla yanaşı, ölkəmizdə havanın keyfiyyətinin yaxşılaşdırılması, içməli su probleminin aradan qaldırılması məsələləri prioritet olaraq qalır. “Biz enerji ölkəsi olsaq da, tükənməyən alternativ enerji mənbələrinin inkişaf etdirilməsində maraqlıyıq. İqtisadiyyat inkişaf etdikcə ekoloji tarazlıqda istər-istəməz pozğunluqlar olur ki, bunlar da aradan qaldırılmalıdır. İçməli suyun tükənməməsi üçün bir çox layihələr həyata keçiririk, ancaq bu da kifayət etmir, daha çox müvafiq layihələr üzərində işləməliyik. Bu məsələlərin həllində Dünya Meteorologiya Təşkilatının dəstəyi vacibdir. Biz hökumətə reallaşa biləcək layihələrlə bağlı məlumat verəcəyik. Sizin rəhbərlik etdiyiniz qurumlarla əməkdaşlıq çərçivəsində faydalı layihələrin həyata keçiriləcəyinə ümidvarıq”, - deyə Baş nazirin müavini qeyd edib.



Dünya Meteorologiya Təşkilatının baş katibi Petteri Taalas Azərbaycanda birinci dəfə olduğunu vurğulayaraq, ölkəmizlə yaxından tanış olduğundan məmnunluğunu ifadə edib. Qonaq Sovet İttifaqı dağıldıqdan sonra müstəqilliyini bərpa etmiş bir çox ölkələrdə olduğunu, lakin heç birinin Azərbaycan kimi uğurlu inkişafa nail olmadığını bildirib. Petteri Taalas həyata keçiriləcək layihələrin kənd təsərrüfatının inkişafında uğurlu nəticələr verəcəyini vurğulayıb. Baş katib deyib: “Həyata keçiriləcək layihələrin uğurlu olacağına əminəm. Azərbaycanda dayanıqlı inkişaf sürətlidir, bütün sahələrdə inkişaf gedir, müsbət nəticələr var. Biz təklif edirik ki, meteoroloji sahəyə investisiya yatırılsın. Bu sahəyə qoyulan investisiyaların 10 mislini götürmək imkanı var. Bu, həm də havanın keyfiyyətinin yaxşılaşmasına müsbət təsirini göstərəcək”. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Yeni təhsil naziri kollektivə təqdim olunub



Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Prezident İlham Əliyevin 2018-ci il 23 aprel tarixli Sərəncamı ilə təhsil naziri vəzifəsinə təyin olunmuş Ceyhun Bayramovu nazirliyin kollektivinə təqdim edib. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, akademik Ramiz Mehdiyev son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə nailiyyətlərin əldə olunduğunu qeyd edib, xüsusilə təhsilin inkişafı istiqamətində həyata keçirilən islahatları diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov dövlətimizin başçısı tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. O, Azərbaycan Prezidentinin təhsil sahəsində qarşıya qoyduğu geniş hədəfli vəzifələrin icrasının layiqincə yerinə yetirilməsi üçün əlindən gələni edəcəyini, bütün qüvvələrin səfərbər olunacağını vurğulayıb.

## XİN: “Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün Ermənistandakı sağlam siyasi qüvvələrlə danışıqları davam etdirməyə hazırıq”



“Serj Sarkisyanın rəhbərlik etdiyi hərbi diktatura rejiminin hakimiyyətdən getməsindən sonra Ermənistanda hakimiyyətə sağlam siyasi qüvvələrin gələcəyinə ümidvarıq. Ermənistan xalqını əsarətdə və müharibə xofu altında saxlayan Sarkisyan rejiminin yürütdüyü siyasət nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində indiyə qədər irəliləyiş əldə etmək mümkün olmayıb.”

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ermənistanda baş vermiş hakimiyyət dəyişikliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə necə təsir edə biləcəyi haqqında KİV-in sorğusunu cavablandıran Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, qoşunların təmas xəttində Azərbaycan tərəfindən guya hərbi texnika və canlı qüvvənin cəmləşdirilməsi barədə keçmiş Sarkisyan rejiminin ünsürlərinin isterik açıqlamaları həqiqəti əks etdirmir və keçən ilə aid məlumatlara əsaslanır. Burada məqsəd yalnız ictimai fikri çaşdırmaq idi. Amma fakt ondan ibarətdir ki, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olmaqda davam edir. Gərginlik riskini aradan qaldırmaq üçün Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır.

“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbləri əsasında sülh yolu ilə tezliklə həlli üçün Ermənistandakı sağlam siyasi qüvvələrlə danışıqları davam etdirməyə hazırıq. Münaqişənin tezliklə sülh yolu ilə həll edilməsi regionda davamlı sülh və sabitliyin bərqərar olmasını və hərtərəfli regional əməkdaşlıq imkanlarının yaranmasını təmin etmiş olar.

Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini təmin edəcək”, - deyə Hikmət Hacıyev qeyd edib.

## Sahibə Qafarova: “AŞPA mövqeyini dəyişməli, bütün üzv ölkələrə eyni gözlə baxmalıdır”



AŞPA-nın yaz sessiyasının ilk günündə keçirilmiş sərbəst debatlarda heç bir avropalı deputat Ermənistanda baş verən hadisələrdən danışmadı. Bunu belə də gözləyirdik. Çünki həmişə bu qurumda ikili standartlarla üzləşmişik. Bu fikri AZƏRTAC-a müsahibəsində Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sahibə Qafarova bildirib.

O deyib: “AŞPA-da bu hadisələrlə bağlı susqunluqdan təəccüblənmədik. Çünki belə halların çox şahidi olmuşuq. Ermənistan 25 ildir Azərbaycan torpaqlarını işğal edib. Artıq Azərbaycanın və işğalçı Ermənistanın AŞPA-nın üzvlüyünə qəbul edilməsindən 17 il ötür. Bu illər ərzində qurumda bu məsələ ilə bağlı heç bir ciddi addım atılmayıb.

Bu gün Ermənistanda baş verən hadisələr də məhz belə mövqeyin nəticəsidir. Ermənistana həmişə loyal münasibət olub. Ermənistanda baş verən belə ciddi aksiyalara, hadisələrə AŞPA-da göz yumulur və heç bir reaksiya verilmir. Bu qurum mövqeyini dəyişməli, bütün üzv ölkələrə eyni gözlə baxmalıdır”.





# Ermənistanın təcavüzkar və dövlət terrorçuluğu siyasəti regional inkişafa və əməkdaşlığa əsas təhlükədir

***Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun, "ASAN xidmət"in könüllülük məktəbinin və Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurasının (ARGTMŞ) birgə təşkilatçılığı ilə "Regional inkişafa və əməkdaşlığa əsas təhlükə Ermənistanın təcavüzkar və dövlət terrorçuluğu siyasətidir" mövzusunda konfrans keçirilib.***

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyasının (YAP) Binəqədi rayon təşkilatında keçirilən tədbirdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun, ARGTMŞ-in, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri, "ASAN xidmət"in əməkdaşları və könüllüləri, eləcə də rayon üzrə dövlət orqanlarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək abidəsi önünə gül dəstələri qoyublar.

Sonra konfrans iştirakçıları Dövlət Komissiyası tərəfindən nəşr edilən əyani vəsaitlərlə tanış olublar. Tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Konfransda çıxış edən Dövlət Komissiyasının İşçi qrupunun rəhbərinin müavini Eldar Səmədov bildirib ki, tədbirin məqsədi Azərbaycana qarşı təcavüzkarlıq və terrorçuluq siyasəti yeridən Ermənistanda faşizmin və ifrat şovinizmin dövlət siyasəti səviyyəsinə qaldırılması, bunun ümumi regional sabitliyə, inkişafa və əməkdaşlığa doğurduğu təhlükələr barədə həqiqətlərin beynəlxalq aləmə çatdırılmasıdır.

Eldar Səmədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır fəsadları, o cümlədən əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar məsələlərin həlli, təmsil etdiyi qurumun erməni terrorizminin araşdırılması ilə bağlı gördüyü işlərdən danışıb. Qeyd edib ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əsas fəaliyyət istiqamətlərindən birini Ermənistan hərbçiləri və erməni terrorçu-quldur birləşmələrinin Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli cinayət faktlarının dünya ictimaiyyətinə çatdırılması təşkil edir. Bu işdə gənclərin daha da yaxından iştirakı və beynəlxalq aləmin məlumatlandırılması yollarının araşdırılması mühüm əhəmiyyətə malikdir.

Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərinin müavini diqqətə çatdırıb ki, erməni terror təşkilatları 100 ildən çoxdur dünyada və Azərbaycanda çoxsaylı terror hadisələri törədiblər. Ermənistanda faşizm və ifrat şovinizm siyasəti bu ölkənin qonşularına qarşı strategiyasının əsas elementinə çevrilib. Ermənistanın apardığı siyasətin bölgənin ümumi inkişafına, sülhə, sabitliyə və əməkdaşlığa göstərdiyi mənfi təsir barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması mexanizmi və yolları müasir kommunikasiya vasitələrindən mütəmadi istifadə edən gəncləri dərindən düşündürməlidir. Bu sahədə Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş hücum diplomatiyası taktikası, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən aparılan sistemli fəaliyyət və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü olan "Xocalıya ədalət!" kampaniyası gənclərimizə böyük nümunədir.

Məlumat verilib ki, Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində yeritdiyi işğalçılıq və terror siyasətini ifşa edən kitablar nəşr olunub və bu istiqamətdə işlər davam etdiriləcək.

Diqqətə çatdırılıb ki, XX əsrin əvvəllərindən başlayaraq erməni terrorçu təşkilatları, quldur dəstələri və Ermənistanın silahlı qüvvələri Azərbaycan xalqına qarşı zaman-zaman genişmiqyaslı hərbi təcavüz, etnik təmizləmə və soyqırımı həyata keçirib. Nəticədə Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal edilib, bir milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib, 20 min insan qətlə yetirilib, 50 min insan əlil olub, 3875 nəfər itkin düşüb. Müasir dövrün insanlıq əleyhinə yönəlmiş dəhşətli cinayətlərindən olan, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusu tərəfindən Xocalı şəhərində törədilən soyqırımı nəticəsində 613 dinc sakin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib.

Məhz təcavüzkar və militarist siyasət yeritməsi, terrorizmi və separatizmi dövlət səviyyəsində dəstəkləməsi Ermənistanı bu gün regionda uğurla həyata keçirilən, buradakı dövlətlərin rifahına və inkişafına yönələn bütün iqtisadı layihələrdən kənarda qoyub. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan bu sahədə beynəlxalq əməkdaşlığa, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə üstünlük verir, tərəfdar çıxdığı beynəlxalq sənədlərə və dövlətlərarası müqavilələrə əsasən, terrorçuluğa qarşı mübarizədə xarici dövlətlərlə, habelə beynəlxalq təşkilatlarla əlaqələrini genişləndirir.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardığı terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter alıb. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayonun işğalı zamanı çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərlə yanaşı, xeyli uzaqda yerləşən yaşayış məntəqələrində terror aktları törədib, nəticədə yüzlərlə günahsız insan həlak olub.

1988-ci ildən etibarən erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağdan və Azərbaycanın digər işğal olunmuş ərazilərindən əhalinin məcburi köçürülməsi, maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr verilərək onların bir qisminin öldürülməsi və şikəst edilməsi, habelə ermənilərin törətdikləri təxribat, terror və başqa ağır cinayət faktları ilə əlaqədar Baş Prokurorluğun ərazi və hərbi prokurorluqları, Daxili İşlər Nazirliyi və digər xüsusi xidmət orqanları tərəfindən 600-dən çox cinayət işi başlanıb, istintaq aparılıb.

İşçi qrupunun rəhbərinin müavini qeyd edib ki, itkin düşmüş Azərbaycan vətəndaşlarının sonrakı taleyi ilə bağlı hazırda Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə yaxından əməkdaşlıq edilir. Gələcəkdə ekshumasiya və identifikasiyanın aparılması üçün itkin düşmüş şəxslərin ailə üzvlərindən, yaxın qohumlarından DNT nümunələri götürülür. "Hazırkı dövrdə bizim əsas vəzifəmiz tarixin obyektiv araşdırılmasının aparılması və XX əsrin əvvəllərindən başlayaraq ermənilər tərəfindən türk-müsəlman əhaliyə və eyni zamanda, digər etnik və dini toplumlara qarşı törədilmiş cinayət əməlləri barədə tarixi həqiqətləri üzə çıxarmaq və yaymaqdır", - deyə E.Səmədov vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru Qasım Hacıyev, institutun əməkdaşı Nəsibə Mirzəyeva, ARGTMŞ-in sədri Seymur Hüseynov, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, "ASAN Könüllülər" məktəbinin rəhbəri Cahangir Hacıyev və başqaları çıxış edərək erməni terrorizmi və onun ağır fəsadlarından söz açıb, erməni vəhşiliklərini tarixi faktlarla diqqətə çatdırıblar. Bildiriblər ki, erməni terrorizmi təkcə azərbaycanlılar üçün deyil, digər qonşu xalqlar üçün də tarixən ciddi problemlər yaradıb. Ermənistan dövləti süni şəkildə yaradılıb. Bu dövlət terrorizm yuvasıdır, Cənubi Qafqazdakı bütün ölkələr üçün təhdiddir.

Qeyd edilib ki, Ermənistan öz şovinist dövlət siyasətinin məqsədlərinə çatmaq üçün informasiya müharibəsinin alətlərindən istifadə edir. İnternet mediası məkanında, sosial şəbəkələrdə təxribatla, yalan məlumatların yayılması, tarixi faktların saxtalaşdırılması ilə məşğul olur. Ancaq zaman göstərir ki, düşmən tərəfindən atılan bütün addımlar əbəsdir. Bu gün əminliklə demək olar ki, Ermənistan informasiya müharibəsində Azərbaycana uduzur.

Çıxışlarda vurğulanıb ki, gənclərimiz bu gün informasiya müharibəsində çox fəal iştirak edirlər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasına dəstək fəaliyyətləri çərçivəsində 20 Yanvar faciəsi, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində gənclər təşkilatları və tələbə-gənclər təşkilatlarının dəstəyi ilə sosial şəbəkələrdə genişmiqyaslı aksiyalar keçirilib. Müstəqillik dövründə Azərbaycan iqtisadiyyatı, ordusu güclənib və gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etməyə tam hazırdırlar və buna qadirdirlər.

Çıxış edənlər gənclərimizi bundan sonra da Azərbaycanın milli maraqlarını daim qorumağa, informasiya müharibəsində fəal iştirak etməyə çağırıblar. Konfrans iştirakçılarına Dövlət Komissiyası adından minnətdarlığımı bildirən Eldar Səmədov deyib ki, burada səsləndirilən fikirlər tarixi hadisələrin obyektiv tədqiqatının zəruriliyini və əsl həqiqətlərin beynəlxalq aləmə çatdırılmasının vacib ictimai və elmi vəzifə olduğunu bir daha təsdiqləyir. O, konfransın təşkilinə verdiyi dəstəyə görə tədbir iştirakçıları adından Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Mədət Quliyevə təşəkkürünü bildirib. Qeyd edib ki, bugünkü tədbirdə səslənmiş fikir və mülahizələr komissiyanın gələcək fəaliyyətinə yeni stimul verəcək və bu sahədə əməkdaşlıq davamlı olacaq. Sonda gənclərin sualları cavablandırılıb, çıxışlar və təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin iclasında ombudsmanın illik məruzəsi dinlənilib



***Aprelin 24-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə keçirilmiş prezident seçkilərindən sonra formalaşdırılmış yeni hökumətdə rəhbər vəzifələrə təyin olunmuş deputatlara təbriklərini çatdırıb. Bildirib ki, Milli Məclis deputatlarının hökumətdə yüksək vəzifələrə təyin olunması Prezident İlham Əliyevin parlamentə etimadının göstəricisidir. Sədr buna görə Milli Məclis adından Prezident İlham Əliyevə minnətdarlıq edib.***

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb. Əvvəlcə "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu (ikinci səsvermə) barədə hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, muxtar respublika Konstitusiyasının altı maddəsi üzrə edilən dəyişikliklər ötən ilin sentyabrında referendum yolu ilə Azərbaycan Konstitusiyasına olunan dəyişikliklərdən irəli gəlir. Layihə birinci dəfə Milli Məclisdə təsdiq olunub və qanunvericiliyə görə altı aydan sonra ikinci səsverməyə çıxarılır. Qanun layihəsi səsə qoyularaq təsdiqlənib. Sonra Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova ombudsmanın 2017-ci il üçün illik məruzəsini təqdim edib. Bildirib ki, məruzədə müvəkkilin Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpası, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, habelə insan hüquqlarının təmin edilməsi sahəsində fəaliyyəti, hüquqi maarifləndirmə və elmi-analitik işin nəticələri, onun dövlət qurumları, ictimaiyyətlə və kütləvi informasiya vasitələri ilə əməkdaşlığı, beynəlxalq əlaqələri, həmçinin insan hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsinə yönəlmiş təklif və tövsiyələri öz əksini tapıb.

Qeyd olunub ki, 2017-ci ildə Azərbaycan vətəndaşı olan 53 həbs edilmiş şəxs və məhkum xarici dövlətlərdən təhvil alınıb, 81 həbs edilmiş şəxs və məhkum isə xarici dövlətlərə göndərilib. Bundan başqa, Bakı şəhərində bəzi tikinti şirkətləri tərəfindən inşa edilərək istifadəyə verilmiş və tikilməkdə olan müasir çoxmərtəbəli yaşayış binalarındakı mənzillərin hər birinin şirkət rəhbərliyi tərəfindən ən azı 2-3 adama satılması ilə bağlı Ombudsman Aparatına müraciətlər olunub.

Məlumat verilib ki, ombudsmana edilən bəzi müraciətlərdə bir sıra mənzil-tikinti kooperativləri tərəfindən Tarif (qiymət) Şurasının tələblərinə zidd kommunal normativlərin müəyyən edilməsi, sakinlərlə bağlanılmış müqavilənin şərtlərinə əməl olunmaması və onların aldadılması kimi hallar yer alıb. İqtisadiyyat və Vergilər nazirlikləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən MTK-larda birgə monitorinqlərin aparılması, qeyd edilən qanunsuzluqların aşkar edilərək qarşısının alınması üzrə qanun çərçivəsində tədbirlər görülməsi məqsədə müvafiqdir. Həmçinin hesabatda sosial şəbəkələrdən istifadə zamanı özgə adlar altında qeydiyyatdan keçərək və cəzasızlıq mühitindən istifadə edərək başqalarının şərəf və ləyaqətinə xələl gətirən, işgüzar nüfuzunu ləkələyən ifadə, habelə audio və ya video görüntülərdən istifadə hallarına yol verilməsi məsələsi qeyd olunub.

Sənəddə göstərilir ki, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan izlənilə bilməz, video və ya foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula, həmçinin informasiya texnologiyalarından şəxsi həyata, əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz. Vətəndaşların şəxsi həyatına qanunsuz müdaxilələrin qarşısının alınması, onların şərəf və ləyaqətinin, hüququnun daha etibarlı müdafiəsi və pozulması hallarının qarşısının alınması məqsədilə informasiya texnologiyalarından, sosial şəbəkələrdən istifadənin hüquqi tənzimlənməsinə ehtiyac var.

Müzakirələrdən sonra illik məruzə səsə qoyularaq nəzərə alınıb.

Sonra elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Peşə təhsili haqqında" qanun layihəsinin üçüncü oxunuşu barədə məlumat verib. Bildirib ki, peşə təhsili ölkəmizdə prioritet istiqamətlərdən biridir. Müzakirəyə çıxarılan bu qanun layihəsinin hazırlanması zamanı bir sıra ölkələrin bu sahədə təcrübəsi öyrənilib və nəzərə alınıb. Peşə təhsili Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən və təhsilalanların bilik, bacarıq və vərdişlərinin mənimsənilməsini, ixtisaslarının daim artırılmasını, eyni zamanda, onların zəruri əmək bacarıqlarına yiyələnmələrini təmin edən prioritet fəaliyyət sahəsidir. Peşə təhsili təhsilalanların milli-mənəvi və bəşəri dəyərlər ruhunda, milli dövlətçilik marağı və azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılmasını təmin edir. Deputatlar "Peşə təhsili haqqında" qanun layihəsini üçüncü oxunuşda səsə qoyaraq təsdiqləyiblər. Milli Məclisin deputatları "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələyə müsbət münasibət bildiriblər.

Sonra hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklik barədə məlumat verib. Bildirib ki, bu dəyişikliklərə əsasən sosial evlərin tikintisini həyata keçirən MİDA publik hüquqi şəxsin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun icazəsi alınmadan özbaşına tikinti aparmağa görə inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyətinin rayon (şəhər) məhkəmələrinin aidiyyətinə verilməsi təklif edilir. Təklif olunan dəyişiklik səsə qoyularaq təsdiqlənib.

Sonra Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli gündəlikdəki 13 qanuna təklif olunan dəyişikliklər barədə məlumat verdi. Bildirib ki, Cinayət, İnzibati Xətalar və Vergi məcəllələrinə, "Dövlət qulluğu haqqında", "Əmək pensiyaları haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İcra haqqında", "Könüllü fəaliyyət haqqında", "Sosial müavinətlər haqqında", "Sosial sığorta haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" qanunlara edilən dəyişikliklər "İşsizlikdən sığorta haqqında" Qanuna uyğunlaşdırma xarakteri daşıyır. Təklif olunan bu dəyişikliklər də ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

İclasda "Müflisləşmə və iflas haqqında" Qanuna təklif olunan dəyişiklikləri iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə diqqətə çatdırıb. Bildirib ki, layihə borclunun ləğv edilməsinə maksimum yol verməmək üçün sağlamlaşdırma tədbirlərinin tətbiqinə imkanlar və mexanizmlər yaratmaq məqsədilə hazırlanıb. Qanun layihəsi sağlamlaşdırma haqqında məhkəməyə verilən ərizənin məzmununa dair tələbləri və ərizəyə əlavə olunan sənədlərin dairəsini müəyyən edir, o cümlədən borclunun sağlamlaşdırılmasının plan əsasında həyata keçirilməsini və bu planın tərtibi, hazırlanması, təsdiqi və sağlamlaşdırma prosesinə başlanılmasının yaratdığı hüquqi nəticələri təsbit edir. Layihədə qeyd olunur ki, sağlamlaşdırma borclunun ödəmə qabiliyyətinin bərpası üsuludur. Milli Məclisin deputatları bu qanun layihəsini də səsə qoyaraq təsdiqləyiblər.

Sonra Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Məşğulluq haqqında" qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, bu sahəni tənzimləyən qanun olsa da, müasir dövrdə yeni qanunun hazırlanmasına ehtiyac yaranıb. 5 fəsil, 34 maddədən ibarət olan yeni qanun layihəsində özünüməşğulluq, peşə standartları, vakansiya bankı, sığorta və digər sosial məsələlər ilk dəfə olaraq yer alıb. Yeni qanun layihəsi məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edəcək. Bildirilib ki, bu qanun qüvvəyə mindiyi gündən "Məşğulluq haqqında" 2001-ci ildə qəbul olunmuş əvvəlki qanun ləğv edilir. Deputatlar qanun layihəsini konseptual baxımdan yüksək qiymətləndiriblər və birinci oxunuşda səsə qoyaraq qəbul ediblər. Bununla da Milli Məclisin iclası başa çatıb.

## Diasporla İş üzrə Dövlət Komitəsinin yeni sədri kollektivə təqdim edilib



Aprelin 24-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Diasporla İş üzrə Dövlət Komitəsinin yeni sədri Fuad Muradovu kollektivə təqdim edib.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Ramiz Mehdiyev gənc və perspektivli kadr olan Fuad Muradovun Diasporla İş üzrə Dövlət Komitəsinə sədr təyin olunmasının əhəmiyyətini qeyd edib. Prezident Administrasiyasının rəhbəri Dövlət Komitəsinin fəaliyyətində yol verilmiş nöqsanların yeni sədrin rəhbərliyi ilə aradan qaldırılacağına ümid etdiyini bildirib.

## İslam dininin fundamental dəyərləri geniş təbliğ edilməlidir



Aprelin 24-də Şamaxıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda keçirilən ikigünlük seminar-müşavirə işini başa çatdırıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, gənclər, yuxarı sinif şagirdləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

Sonra çıxış edən rayon icra hakimiyyəti başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və bu gün dövlət başçısı İlham Əliyevin davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Vurğulayıb ki, müstəqil Azərbaycanda ənənə halını almış tolerant və multikultural mühit bütün dünyada təbliğ və təşfiq olunmaqdadır. O, gənclərin dini radikalizm və onun fəsadları barədə məlumatlandırılması istiqamətində bu cür seminar-müşavirələrin əhəmiyyətini yüksək dəyərləndirib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında dinimizin fundamental dəyərlərinin geniş təbliğ edilməsinin vacibliyini qeyd edib. Dövlət Komitəsi sədrinin birinci müavini maarifləndirmə və gənclərin dini radikalizmlə mübarizədə fəaliyyətlərinin gücləndirilməsi məqsədilə keçirilən bu cür tədbirlərin gələcəkdə də davam etdiriləcəyini bildirib.

Səyyad Salahlı, eyni zamanda, dini radikalizmə qarşı mübarizədə maarifçiliyin əsas silah olduğunu vurğulayıb. O, dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara, xüsusilə gənclərə aşılanmasının radikalizmin qarşısının alınmasında ən effektiv vasitə olduğunu deyib.

Sonda çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin tərkibində Dini təhsil sektorunun müdiri Anar Əlizadə qeyd edib ki, bu görüşlər gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğinə, dinimizin əsaslarının möhkəmləndirilməsinə və dindarlarla əlaqələrin intensivləşdirilməsinə yönəlib. Azərbaycanda dini müstəvidə sabitlik və əmin-amanlığın bundan sonra da dövlətimiz üçün siyasi baxımdan prioritet məsələ olduğunu diqqətə çatdıran A.Əlizadə cəmiyyətimizin, xüsusilə, gənclərin radikal təsirlərdən qorunmasında hər kəsin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb. Daha sonra çıxış edən natiqlər gənclərin ekstremizm və digər zərərli vərdişlərdən qorunması üçün onlar arasında dini maarifləndirmə işinin aparılmasının önəmini diqqətə çatdırıblar. Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

## Sarkisyan tarix qarşısında cavab verməlidir



"Bu gün Ermənistanda kifayət qədər ciddi proseslər baş verir. Artıq xalq 20 ildən çoxdur ki, Dağlıq Qarabağ münaqişəsindən istifadə edərək, hakimiyyəti zorla əldə saxlayan, öz ölkəsini demək olar ki, beynəlxalq aləmdən təcrid edən bir rejimdən-Serj Sarkisyan və onun terror qruplaşmasından canını qurtardı. Aprelin 23-də xalqın kəskin etirazına qarşı tab gətirə bilməyən Sarkisyan istefa verdi. Hazırda Ermənistanda kütləvi mitinqlər davam edir. Bu bir daha onu göstərir ki, qatil Sarkisyanın ötən illər ərzində apardığı işğalçılıq siyasətini heç onun öz xalqı belə dəstəkləmir. Hesab edirəm ki, erməni xalqı ölkəni, cəmiyyəti istismar edən hərbi xuntadan canını qurtardı və gələcək taleyini müəyyənləşdirmək imkanı qazandı." Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib. Vüqar Rəhimzadə qeyd edib ki, xalq Sarkisyana etiraz etməklə uzun illərdir ölkədə hökm sürən korrupsiyaya, insan haqlarının boğulmasına, sosial problemlərə etiraz edir: "Ermənistan uzun illərdir ki, torpaqlarımızın 20 faizini işğal altında saxlayır. Bu ölkə öz terrorist hakimiyyətinin işğalçılıq siyasəti ilə nəinki regionda, bütün dünyada sülhə və təhlükəsizliyə böyük təhdid törədir. Elə bunun nəticəsidir ki, Ermənistan regional və qlobal layihələrdən kənarda qalıb. Ölkədə sosial problemlər baş alıb gedir. Korrupsiya halları dözülməz həddə çatıb. Buna görə də vətəndaşlar kütləvi olaraq ölkəni tərk edirlər. Təbii ki, bütün bunların bir sonu olmalı idi və oldu. Erməni xalqı ölkəsini öz şəxsi maraqlarına qurban verən mafioz klandan canını qurtardı."

V.Rəhimzadə əlavə edib ki, Xocalı soyqırımının əsas təşkilatçılarından biri olan Sarkisyan tarix qarşısında cavab verməlidir: "Serj Sarkisyan günahsız insanların, körpələrin qatilidir. Onun əli Dağlıq Qarabağda, o cümlədən, Xocalıda yüzlərlə günahsız insanın qanına batıb. Hesab edirəm ki, bu cür terrorist, uşaq qatili beynəlxalq tribunal qarşısında mühakimə edilməli və ən ağır cəzaya məhkum olmalıdır."

Vüqar Rəhimzadə onu da vurğulayıb ki, bundan sonra Ermənistanda baş verə biləcək müsbət hadisələr regionun gələcək taleyinə də öz təsirini göstərə bilər: "Fikir verdinizsə, Ermənistanda Sarkisyana etiraz edən xalq kütləsinin arasında Dağlıq Qarabağda öz övladını itirmiş valideynlər, hərbçilər də var idi. Bu, bir daha onu göstərir ki, həmin insanlar Sarkisyanın Dağlıq Qarabağla bağlı siyasətinə də öz etirazlarını bildirirdilər. Xalq başa düşür ki, Ermənistanın işğalçılıq siyasəti onların gələcək taleyinə yaxşı heç nə vəd etmir. Bu ölkənin gələcəyi yalnız və yalnız Dağlıq Qarabağ münaqişəsinin həllindən və Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən asılıdır. Bu halda, hansısa inkişafdan, danışıqlardan, əməkdaşlıqdan söhbət gedə bilər. Hesab edirəm ki, gələcəkdə qurulacaq yeni hökumət bunu nəzərə almalı, Sarkisyanın getdiyi yolu getməməlidir. Əks halda, Ermənistanı bundan da ağır, pis günlər gözləyə bilər."

## Bəhruz Quliyev: "Erməni xalqı Ermənistanı işğalçı dövlət kimi dünyaya tanıtdıran Qarabağ klanından canını qurtardı"



Artıq bir müddətdir ki, "Serj, hakimiyyətdən rədd ol!" deyən erməni xalqı zorən konstitusiyanı dəyişib baş nazir vəzifəsini ələ keçirən Serj Sarkisyanı hakimiyyətdən qovdu. Serj Sarkisyan Ermənistanda dövlətin və xalqın problemlərini nəinki həll edə bilməyən, hətta daha ağır məhrumiyyətlərə düçar edən diktatura rejimi yaratmışdı. Bu xunta rejiminə dözməyən xalq onu istefa verməyə məcbur etdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Səs" Media Holdinqin rəhbəri, siyasi ekspert Bəhruz Quliyev bildirib. O vurğulayıb ki, 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın biabırçı məğlubiyyətindən sonra erməni xalqı başa düşdü ki, Serj Sarkisyan dövlətin başında durmağa yararlı şəxs deyil. Sarkisyanın yeritdiyi xarici siyasət ölkəni bütün beynəlxalq layihələrdən təcrid etməklə yanaşı, xalqı ağır duruma salmışdı. Odur ki, narazı xalqın bu diktator rejimə qarşı üsyanı zərurətə çevrilmişdi. Nəhayət, Ermənistandakı hərbi xuntanın başçısı, Xocalı faciəsinin təşkilatçılarından biri olan Serj Sarkisyan xalqın bir an belə səngiməyən təzyiqi altında yeni "seçildiyi" baş nazir vəzifəsindən istefa verməyə məcbur oldu. Bir sözlə, erməni xalqı son on ildə ona misli görünməmiş fəlakətlər yaşatmış cinayətkar rejimi yıxmağı bacardı. Bununla da erməni xalqı 20 ildən artıq müddətdə Dağlıq Qarabağ kartı ilə onu girovluqda saxlayan, bütün regional və beynəlxalq layihələrdə iştirakdan məhrum edən, Ermənistanı işğalçı dövlət kimi dünyaya tanıtdıran Qarabağ klanından canını qurtara bildi. Artıq erməni xalqı Xocalı soyqırımının əsas səbəbkarını hakimiyyətdən qovmaqla öz hakimiyyətini formalaşdırmaq imkanı qazandı. Erməni xalqı bundan sonra legitim hakimiyyət formalaşdırmalıdır. Bu hakimiyyət, ilk növbədə, işğalçılıq əməllərindən əl çəkməli və regional əməkdaşlığa can atmalıdır. Bu günə qədər Serj Sarkisyanın ambisioz siyasəti Ermənistana beynəlxalq aləmdə işğalçı ölkə imicini qazandırıb. Bu siyasət Ermənistanı mafioz qruplaşmaların idarə etdiyi obyektə çevirib. Serj Sarkisyanın hakimiyyətdən qovulması bir daha erməni xalqına düzgün istiqamətdə inkişaf etməsi üçün tarixi şans yaradıb. Bundan sonrakı məsələlərdən biri də Sarkisyanın soyqırımı təşkilatçısı kimi məsuliyyətə cəlb edilməsi və beynəlxalq tribunal qarşısında cavab verməsidir.

## Eldar İbrahimov: Ermənilər başa düşməlidir ki, öz ölkələrinin gələcəyi işğalçılıq siyasətinə son qoyulmasından keçir

***"Azərbaycan xalqının qanına əli bulaşan birinin hakimiyyətdən qovulması hər bir azərbaycanlını, o cümlədən də məni sevindirir. Serj Sarkisyan qatildir, o torpaqlarımızın işğalında birbaşa rol oynayıb". Bu fikirləri yap.org.az saytına YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov deyib.***



E.İbrahimov bildirib ki, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə də Sarksiyan rejimi imkan verməyib. Onun sözlərinə görə, S.Sarkisyanın hakimiyyəti illərində qeyri-konstiriktiv mövqe nümayiş etdirilib, müxtəlif bəhanələrlə, təxribatlarla sülh danışıqları pozulub.

"Sarkisyan rejimi Ermənistan əhalisinə də zülm edib. O, Ermənistanı dərin böhrana düçar edib, əhali yoxsuldur. Ona görə də, insanlar həmin ölkəni tərk edirlər. Vaxtilə ATƏT PA-nın tədbirləri çərçivəsində ermənilərlə görüşlərimiz olub. Onlar səmimi söhbət zamanı deyirdilər ki, "bizə Qarabağ lazım deyil. Ermənistan bütün beynəlxalq layihələrdən təcrid olunub. Ermənistan dağılır, insanlar acından ölür. Bizim Qarabağla nə işimiz var?!". Yəqin ki, Sarkisyanın istefası ilə Qarabağ klanının hakimiyyətinə son qoyulacaq. İnanmaq istəyirəm ki, yeni hakimiyyətə gələn qüvvələr reallıqları dərk edəcək və erməni hərbi birləşmələrini Azərbaycanın işğal olunmuş torpaqlarından geri çəkəcəklər. Bununla da, regionda sülh bərqərar ola bilər. Ermənilər başa düşməlidir ki, öz ölkələrinin gələcəyi işğalçılıq siyasətinə son qoyulmasından keçir"-deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb.

# Strateji hədəflərə doğru: Prezidentin andiçmə mərasimindəki nitqinin əsas tezisləri

***Azərbaycanda növbəti dəfə Prezident seçilən İlham Əliyevin parlamentdə andiçmə mərasimində söylədiyi dərin məzmunlu nitqini ekspertlər böyük maraqla qarşılayıb. Dövlət başçısı xeyli sayda yeni çox dəyərli tezislər səsləndirib, dərin təhlillər aparıb. İlham Əliyev Azərbaycanın son 15 ildə dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətlərində həyata keçirdiyi siyasətin geniş və əhatəli təhlilini verib. Həmin kontekstdə əldə edilən uğurların səbəblərini göstərib. Azərbaycanın daxili və xarici siyasətinin bir sıra mühüm aspektlərini ifadə edib. Bunlarla yanaşı, beynəlxalq aləmdə ölkəmizin getdikcə artan nüfuzundan bəhs edib və qarşıda dayanan perspektivləri vurğulayıb. Ölkə rəhbəri dövlətimizin əldə etdiyi bütün uğurların kökündə müstəqilliyə qovuşmağımızın dayandığını diqqətə çatdırıb. Müstəqilliyin nə demək olduğunu Azərbaycan xalqı yaxşı başa düşür və onu heç zaman əldən verməz. Bu kimi məsələlərlə əlaqədar Prezidentin ifadə etdiyi fikirlər üzərində bir qədər geniş dayanmaq istərdik.***

## Müstəqil dövlət quruculuğu: Azərbaycan modelinin üstünlükləri

Müstəqil dövlət quruculuğunun xüsusi siyasi ustalıq tələb etdiyi mütəxəssislər üçün çoxdan aydındır. Burada söz demək yetərli deyil, əməldə hər şeyi sübut etmək zəruridir. Dövlət quruculuğu konkret fakt tələb edir - real uğurlar olmalıdır. Keçmiş sovet məkanında müstəqilliyini əldə etmiş ölkələrə qısa ümumi nəzər salsaq, ifadə etmək istədiyimiz fikrə daha konkret məzmun verə bilərik.

Rusiya, Qazaxıstan və Belarus müsbət istiqamətdə dövlət quruculuğu prosesi aparırlar. Burada Rusiya hətta istisnadır, çünki o, əsrlərdir mövcud olan imperiyanın varisidir. Həqiqət budur. Mərkəzi Asiyanın digər dövlətləri qarşısında dövlət quruculuğu aspektində hələ çox vəzifələr dayanır və orada tam aydınlıq yoxdur. Ukrayna od içindədir. Moldovada siyasi mühit qeyri-müəyyəndir, orada qüvvələr arasında ziddiyyətlər az deyil. Gürcüstan iki bölgəsini itirib və geosiyasi seçimində birtərəfli mövqe tutduğu hamıya məlumdur. Bu yolla getsə, ən böyük qonşusu olan Rusiya ilə münasibətlərin gələcək taleyi sual altına düşə bilər.

Ermənistan müstəqil dövlət quruculuğu prosesini ən pis forma və məzmunda aparan ölkə kimi tanınmaqdadır. Real olaraq onu Rusiyanın forpostu hesab edirlər və bunda haqlıdırlar. Ermənistan hakimiyyətinin yeritdiyi daxili və xarici siyasət tam iflasa uğrayıb. İndi bu qondarma dövlət iğtişaşlar içindədir. Bir zamanlar monolitliyi ilə öyünən erməni cəmiyyəti indi birbirini didən siyasi qüvvələrin meydanına çevrilib. Onların hər biri xalqın adından danışırlar. Belə çıxır ki, əslində, Ermənistanda xalq deyilən bir məfhum yoxdur - kütlə, kim hara itələyir, ora gedir. Cənubi Qafqazda vassal dövlət olan Ermənistanda müstəqil dövlət quruculuğu baş tutmayıb.

Azərbaycanda isə dövlət quruculuğu prosesində tamamilə fərqli nəticələr əldə edilib. Azərbaycan postsovet məkanında yeganə dövlətdir ki, ən ağır daxili siyasi və geosiyasi vəziyyətdən nəinki çıxa bilib, hətta başqaları üçün nümunə ola biləcək müstəqil dövlət quruculuğu kursu müəyyənləşdirib. Doğrudan da Azərbaycan qədər bu məkanın elə bir ikinci ölkəsi yoxdur ki, total surətdə xarici təcavüzə məruz qalsın. Forpost Ermənistanı dünyanın böyük dövlətləri Azərbaycanın üstünə saldılar. Qısa müddətdə ölkənin 20 faiz ərazisi işğal edildi. Hətta düşmənin planlarında Azərbaycanı parçalamaq kimi qəddar elementlər varmış.

Lakin Azərbaycan xalqı yüksək iradə və müdriklik nümayiş etdirərək öz xilaskarını düzgün müəyyənləşdirdi. Xalqın təkidi ilə ulu öndər Heydər Əliyev dövlətə yenidən rəhbərlik etməyə başladı. Heydər Əliyev müstəqil dövlət quruculuğu kursunu ən incə məqamlarına qədər hazırladı və sistemli olaraq həyata keçirməyə başladı. Ulu öndərin bu siyasətini hazırda Prezident İlham Əliyev böyük uğurla davam etdirir.

Hazırda Azərbaycan müstəqil dövlət quruculuğunun bütün sahələri üzrə böyük uğurlar əldə etmiş ölkədir. Sosial, siyasi, hərbi, iqtisadi, enerji, regional və qlobal əməkdaşlıq, yeni əlaqələr infrastrukturunun yaradılması, mədəniyyətlərarası əlaqələrin inkişaf etdirilməsi və digər sahələrdə Azərbaycan rəhbərliyi konkret proqramlar həyata keçirir və bu proses bütün sürəti ilə davam edir. Görülən işlərin miqyası elədir ki, o barədə geniş analizlər aparmağa ehtiyac vardır. Çünki Azərbaycan təcrübəsi bütün dünya üçün maraqlıdır. Bu səbəbdən həmin mövzuya dəfələrlə qayıtmaq lazım gəlir. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimində söylədiyi nitq bu baxımdan olduqca əhəmiyyətlidir. Dövlət başçısı çıxışı zamanı son 15 ildə dövlət quruculuğunun bütün sahələri üzrə əldə edilən nailiyyətlər haqqında dolğun və maraqlı surətdə fikirlərini ifadə edib. Orada ifadə olunan bir sıra tezislərin təhlili dövlət quruculuğu kursunun əsas məqamlarını dərk etməyə yardımçı ola bilər (bax: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi / AZƏRTAC, 18 aprel 2018).


NEWTIMES ANALYTICAL INFORMATION

Strateji hədəflərə doğru: Prezidentin andiçmə mərasimindəki nitqinin əsas tezisləri

Newtimes.az 24.04.2018 10:00

Bakı, 24 aprel 2018 – Newtimes.az

Azərbaycanda növbəti dəfə Prezident seçilən İlham Əliyevin parlamentdə andiçmə mərasimində söylədiyi dərin məzmunlu nitqini ekspertlər böyük maraqla qarşılayıb. Dövlət başçısı xeyli sayda yeni çox dəyərli tezislər səsləndirib, dərin təhlillər aparıb. İlham Əliyev Azərbaycanın son 15 ildə dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətlərində həyata keçirdiyi siyasətin geniş və əhatəli təhlilini verib. Həmin kontekstdə əldə edilən uğurların səbəblərini göstərib. Azərbaycanın daxili və xarici siyasətinin bir sıra mühüm aspektlərini ifadə edib. Bunlarla yanaşı, beynəlxalq aləmdə ölkəmizin getdikcə artan nüfuzundan bəhs edib və qarşıda dayanan perspektivləri vurğulayıb. Ölkə rəhbəri dövlətimizin əldə etdiyi bütün uğurların kökündə müstəqilliyə qovuşmağımızın dayandığını diqqətə çatdırıb. Müstəqilliyin nə demək olduğunu Azərbaycan xalqı yaxşı başa düşür və onu heç zaman əldən verməz. Bu kimi məsələlərlə əlaqədar Prezidentin ifadə etdiyi fikirlər üzərində bir qədər geniş dayanmaq istərdik.

## Xalq və lider: siyasətçinin güc mənbəyi

Prezident İlham Əliyev nitqinə çox əhəmiyyətli bir məqamla başlayıb. Dövlət başçısı fəaliyyətində ona böyük güc verən qüvvəni açıq ifadə edib. Prezident deyib: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir" (bax: əvvəlki mənbəyə). Bu fikir faktiki olaraq İlham Əliyevin səmərəli fəaliyyətinin başlıca səbəbini açır. Prezident öz xalqına güvənir, ona xidmət edir və bu səbəbdən xalqdan daim dəstək görür. Siyasətçinin ilham mənbəyi xalq olanda gücü birə min artır, çünki bilir ki, arxasında bütün cəmiyyət dayanıb. Bu fikir həm də bir sıra siyasətçilərin yanlış yol seçdiyini təsdiqləyir.

Biz, xaricdəki müəyyən dairələrdən göstəriş alıb, onların verdikləri qrantlar hesabına hakimiyyətə gəlmək xülyasına düşənləri nəzərdə tuturuq. Bu yolla ölkəyə rəhbərlik etməyin sonu həmişə fəcidir. Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəllərində həmin acı təcrübəni yaşadı. Həmin vəziyyətin bir daha təkrar olunmasına xalq imkan verməz. İlham Əliyev bununla bağlı nitqində vurğulayıb: "Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun" (bax: əvvəlki mənbəyə).

Bunlar bir daha təsdiq edir ki, Azərbaycan xalqı öz iradəsi hesabına müstəqil dövlətçiliyi qoruyur və dövlət başçısının fəaliyyətinə tam dəstək verir. Heç bir kənar qüvvə xalqı bu yolundan döndərə bilməz. Seçicilər hər şeydən öncə tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafa səs veriblər. Cəmiyyət görülən işlərə müdrikcəsinə yüksək qiymət verib. Seçkilər isə tam ədalətli və şəffaf keçib. Bunu həm seçkinin nəticəsi ilə bu prosesdən əvvəl yerli və beynəlxalq təşkilatların keçirdiyi rəy sorğularının göstəriciləri, həm də müşahidəçilərin fikirləri sübut edir. "Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir" (bax: əvvəlki mənbəyə). Dövlət başçısının bu fikri Azərbaycan cəmiyyətinin daha dərində olan bir xüsusiyyətini əks etdirir.

Məsələ ondan ibarətdir ki, xalq təsadüfən İlham Əliyevə etimad göstərmir. Hələ 2003-cü ildə, prezident seçkiləri ərəfəsində İlham Əliyev demişdi ki, "əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm" (bax: əvvəlki mənbəyə). İlham Əliyev sözünə əməl etdi, xalq ona inandı və dəstəklədi. Yəni, lider verdiyi sözə konkret əməl edir, daim müstəqil dövlətçiliyin inkişafı üçün çalışır, həmin səbəbdən də bütün cəmiyyət ona etibar edir. Buradan məntiqi nəticə alınır ki, Azərbaycanda xalqla iqtidar vəhdətdədir. İlham Əliyev vədinə həmişə dəqiq əməl edən dürüst siyasi lider imicini qazanıb və cəmiyyət də bunu obyektiv qiymətləndirib. Bütün bunların nəticəsidir ki, "Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur" (bax: əvvəlki mənbəyə).

Uğurlar: daxili və xarici faktorların işığında

Təbii ki, son 15 ildə qazanılan uğurlar haqqında çox faktlar gətirmək olar. Prezident İlham Əliyev onları qısa və dəqiq formada nit-

# Strateji hədəflərə doğru: Prezidentin andiçmə mərasimindəki nitqinin əsas tezisləri

qində ifadə edib. Əldə edilən nailiyyətlər daxili siyasətin bütün aspektlərini, xarici siyasətin istiqamətlərini və təhlükəsizliyin təmini məsələsini əhatə edir. İqtisadi sferada sürətli inkişaf baş verib. Qeyri-neft sektorunun inkişafı prosesi sürətlənib və daha geniş miqyas alıb. Əhalinin rifah halı xeyli yaxşılaşıb. Əmək haqları və pensiyalar artırılıb. Bir-birinin ardınca strateji əhəmiyyətli enerji layihələri reallaşdırılıb. Azərbaycan faktiki olaraq Cənubi Qafqazda nəqliyyat dəhlizlərinin qovşağına çevrilib. Qərb-Şərq, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir.

Bunlardan başqa, əhalinin sosial müdafiəsində, insan haqlarının qorunmasında və multikultural mühitin yaradılmasında Azərbaycan uğurlu addımlar atıb. Bunların nəticəsində inkişaf üçün əsas təminat olan daxili sabitlik yaradılıb. Sabitlik olmadan davamlı inkişafa nail olmaq mümkün deyil. Çünki həmişə kənardan təsirlər nəticəsində cəmiyyətdə tarazlıq pozulur və ölkəni inkişafdan yayındıran vəziyyət yaranır.

Bu bağlılıqda Prezident İlham Əliyev konkret fikir ifadə edib. Dövlət başçısı nitqində vurğulayıb: "Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür" (bax: əvvəlki mənbəyə).

Prezidentin bu fikirlərini təsdiq edən kifayət qədər faktlar vardır. Məsələn, hazırda Suriya və İraqda baş verənləri görürük. Başqa regionlarda da bir ölkənin vətəndaşları bir-birlərinə qarşı silah işlədirlər. Son illərdə Avropada belə qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri baş verib. Son olaraq Ermənistanda insanlar küçələrə axışıb Serj Sarkisyanın istefasını tələb edirdilər. Artıq özünü "lider" adlandıran bu adam istefa verib. Bir qədər əvvəl isə ağızdolusu uğurlarından, dövlət quruculuğundan dəm vururdu. Deyirdi ki, Ermənistanı təhlükəsiz inkişaf xəttinə çıxarmadan vəzifədən ayrılmayacaq. İstefa isə onu göstərdi ki, S.Sarkisyan haqsızdır. Özü də bunu etiraf edib. Deməli, Dağlıq Qarabağla indiyə qədər dedikləri də haqsızlıqdan başqa bir şey deyildir.

Bunlar bir daha göstərir ki, daxili sabitliyi təmin etmək və onu davamlı prosesə çevirmək müdrik siyasət tələb edir. Hər hansı ölkədə sabitliyin təminatçısı xalqla iqtidarın birliyidir. Bu səbəbdəndir ki, Prezident İlham Əliyev ayrıca vurğulayır ki, "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir" (bax: əvvəlki mənbəyə).

## Siyasi mübarizə mədəniyyəti və milli ideya: **Azərbaycanın nailiyyəti**

Bu bağlılıqda dövlət başçısının da xüsusi qeyd etdiyi bir məqamı vurğulamaq yerinə düşərdi. Daxili sabitliyin davamlı olmasında siyasi mübarizə mədəniyyətinin mövcudluğu ciddi əhəmiyyət kəsb edir. Son 15 il ərzində bu istiqamətdə də xeyli irəliləyiş müşahidə edilib. İlham Əliyev ayrıca qeyd edib ki, son prezident seçkiləri də bunu təsdiq edib. Ölkə rəhbəri konkret olaraq ifadə edib: "Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm" (bax: əvvəlki mənbəyə).

Burada hər şeydən öncə, Azərbaycan Prezidentinin yüksək siyasi mədəniyyətə malik olduğu bir daha təsdiqini tapıb. Dövlət başçısı rəqibi olan namizədlərin tənqidi fikirlərini alqışlayır və onu müsbət hal kimi qiymətləndirir! Prezident həmin fikirlərə diqqətlə baxacağını və dəyərli olanları nəzərə alacağını açıq bəyan edir. Bu, demokratiyadır. Prezident İlham Əliyevin sağlam tənqidə və dəyərli təkliflərə tam açıq olduğunu göstərir.

Cəmiyyətdə müsbət dəyişikliklərin baş verməsinin siyasi idarəetmə ilə yanaşı, ideoloji əsasları da vardır. Azərbaycan xalqının birlik nümayiş etdirməsində milli ideologiyanın əvəzsiz rolu olub. Prezident İlham Əliyev bu məqamı da ayrıca vurğulayıb və deyib ki, azərbaycançılıq məfkurəsi ölkədə tam bərqərar olub və "Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib". O cümlədən Azərbaycanda dinlər və millətlərarası münasibətlər daxili sosial və mənəvi harmoniyanı təmin etməkdədir. Ölkədə yaşayan insanlar bir ailə kimi mehribanlıq şəraitində yaşayırlar.

Şübhə yoxdur ki, bundan sonra da belə olacaqdır. Prezident İlham Əliyevin siyasəti bu istiqamətdə uğurlu addımlar atmağa bundan sonra da imkan yaradacaq. Dövlət başçısı həmin istiqamətdə qətiyyətli olduğunu nitqində konkret fikirlərlə ifadə edib: "...Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri elan olunmuşdur" (bax: əvvəlki mənbəyə).

## Müstəqillik və xarici siyasət: **Prezidentin müdrikliyi və qətiyyəti**

Daxili siyasətdə əldə edilən bu nailiyyətlər xarici siyasət sahəsində qazanılan uğurlarla bir vəhdət təşkil edir. 15 ildə Azərbaycan xarici siyasətin bütün prioritet istiqamətləri üzrə böyük nailiyyətlər əldə edib. Bunu sübut edən çoxlu sayda faktlar mövcuddur. Təsadüfi deyildir ki, indi Azərbaycanın çox müsbət beynəlxalq reputasiyası vardır. Beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sənədlər qəbul ediblər. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyən qətnamələr qəbul ediblər.

Azərbaycanın beynəlxalq təşkilatlardakı fəaliyyəti çox geniş olub, getdikcə daha da intensivləşir və dərinləşir. Bu bağlılıqda dünyanın 155 ölkəsinin Azərbaycana səs verərək onu BMT Təhlükəsizlik Şurasına üzv seçməsi ayrıca yer tutur. Haqlı olaraq dövlət başçısı bunu Azərbaycan diplomatiyasının böyük uğuru adlandırır. Çünki "bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir" (bax: əvvəlki mənbəyə).

Xarici siyasətdə əldə edilən digər nailiyyət Azərbaycanın yeni regional əməkdaşlıq formatları təklif etməsi ilə bağlıdır. Burada Prezidentin vurğuladığı kimi, əsas məntiq ondan ibarətdir ki, ikitərəfli əməkdaşlığa elə məzmun vermək gərəkdir ki, çoxtərəfli əməkdaşlığa şərait yaransın. Prezident İlham Əliyev irəli sürdüyü yeni əməkdaşlıq formatları ilə bunu tam təsdiq edib. Üçtərəfli və dördtərəfli əməkdaşlıq formatları daha geniş miqyasda əməkdaşlıq üçün münbit zəmin hazırlayıb. Dövlət başçısı bununla bağlı deyib: "Bizim təşəbbüsümüzlə dörd qonşu ölkə ilə dörd çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir" (bax: əvvəlki mənbəyə).

Azərbaycan rəhbərliyinin aktiv diplomatik addımları ölkənin "Yeni İpək Yolu" layihəsinin əsas iştirakçı dövlətlərindən biri olmasını təmin edib. Hazırda bu layihə çərçivəsində konkret işlər həyata keçirilir. Bundan sonra da həmin istiqamətdə Azərbaycanın fəaliyyətini inkişaf etdirəcəyinə şübhə yoxdur.

Bütün bunların fonunda Prezident İlham Əliyevin daha bir fikri çox dəyərli və aktualdır. Dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll edilməsinin mühüm şərt olduğunu bir daha diqqətə çatdırıb. Bu mənada Azərbaycanın ərazi bütövlüyü məsələsi heç cür müzakirə mövzusu ola bilməz. Hətta Prezident İlham Əliyev məsələni daha geniş kontekstdə qoyub. Ölkə rəhbəri qətiyyətlə bəyan edib: "Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir" (bax: əvvəlki mənbəyə).

Şübhə yoxdur ki, bu fikirləri ilə İlham Əliyev hər bir sözünün arxasında durduğunu bir daha dünyaya bəyan edir. Bir qədər əvvəl İrəvanın Azərbaycan şəhəri olduğu barədə fikir bildirmişdi və ona bir sıra dairələr çox təlaşlı reaksiya vermişdilər. İndi dövlət başçısı daha geniş aspektdə məsələyə yanaşaraq, əslində, bütövlükdə Ermənistanın Azərbaycan torpaqları üzərində yaradıldığını bəyan edir. Bu, bu qondarma dövlətin kim tərəfindən və hansı məqsədlərlə yaradıldığı sualını da ortaya atır. Tarix elmi bu kimi suallara cavab tapmalıdır. Yəni, həmin mövzuda elmi cəhətdən tutarlı tədqiqatlar davam etdirilməlidir. Prezident İlham Əliyevin ifadə etdiyi fikirlər elmi cəhətdən sübut olunmuş faktlara əsaslanır. Deməli, Azərbaycan öz tarixi və təbii haqlarını tələb etməkdə israrlıdır. Dövlət başçısının bu cür mövqeni qətiyyətlə ortaya qoyması və bunu andiçmə mərasimində ifadə etməsi ayrıca qürurverici haldır! Təbii ki, xalq belə rəhbərini daim dəstəkləyər və ona güc verər!

Nəhayət, Prezident nitqini olduqca əhəmiyyətli bir ideya ilə yekunlaşdırıb. Prezident İlham Əliyev əldə edilən hər bir uğurun kökündə Azərbaycanın müstəqil olmasının durduğunu xüsusi qeyd edib. Azərbaycan xalqı müstəqilliyin üstünlüklərini əyani olaraq görür. Buna görə də "Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik" (bax: əvvəlki mənbəyə).

Bu cür müdrik ideyalarına görə, bizə Azərbaycan Prezidenti İlham Əliyevi alqışlamaq və onun tapşırıqlarını, tövsiyələrini dəqiq yerinə yetirmək qalır!

**Newtimes.az**

## Azərbaycan Xalq Cümhuriyyəti - 100

(əvvəli ötən sayımızda)

Mələk yorğun halda top mərmisinin ikiyə böldüyü ağac kötüyünün üstündə oturdu. Dirsəklərini dizlərinə söykəyib, üzünü ovuclarının içinə aldı. Kələ-kötür kənd yollarına baxdı. Yollar kimsəsiz və sakit idi. Bu yollar ancaq gecələr qələbəlik olurdu. Çünki silah-sursat, ərzaq və su daşıyan arabalar ancaq gecələr yola çıxa bilirdi. Ona görə ki, düşmən kəşfiyyat təyyarələri gündüzlər göz açmağa aman vermirdi. Və araba təkərlərinin cırıltısı gecələrin sükutunu pozaraq buraya bir savaş havası gətirirdi.

Mələyin içinə düşmüş qordan sanki ocaq alışdı. Savaş qurtaracaq. O da Əlisiz Gəncəyə qayıdacaq. Sevgisiz, duyğusuz bir həyata başlayacaq... Bu hissin təsirindənmi, qəm-kədərin sıxıntısındanmı, içində qəflətən baş qaldıran burulğanın şiddətindənmi sanki qeybdən qulağına səs gəldi. Bircə anlıq ona elə gəldi ki, Əlinin səsini eşidir. Çətinliklə ayağa qalxdı. Səs vaş qurtarar, görüşərsiz, Mələk.

Sonra Nubar Mələyin başını sinəsinə sıxdı. Sevincdən gözlərindən axan isti göz yaşı sanki yağış kimi içinə dolmuş qara buludları dağıtdı...

General Denstervilin qərargahı dənizdə "Prezident Kryuger" gəmi-


Yazıçı Güllü Məmmədova

və könülsüz halda soruşdu:

- Təzə məlumat varmı, polkovnik?

- Məlumatlar var, general. Amma mən bilmirəm, bu məlumatların hansına inanaq. Biz türklərin şəhərin hansı səmtindən hücum edəcəyini müəyyənləşdirə bilmirik.

- Türk ordusundan qaçmış bir ərəb dedi ki, türklər qərb cəbhəsindən hücum edəcəklər.

- Bizim kəşfiyyat isə bu hücumun şimal cəbhəsindən olacağı fikrindədir. Çünki kəşfiyyatın məlumatına görə buraya gecə-gündüz canlı qüvvə, silah-sursat daşınır.

General yenidən xəritənin qarşısına keçdi. Şəhəri mühasirədə saxlayan ingilis qoşunlarının mövqeləri işarələrlə qeyd olunmuşdu. General çubuğu bu işarələrin üzərində gəzdirərək dedi:

- Gördüyün kimi, polkovnik, biz şəhəri mühasirədə saxlamışıq. Yalnız şəhərin üzünə dəniz yolu açıqdır. Türklər isə gəmiləri olmadığına görə dənizdən istifadə edə

şılamağı düşünürəm. Süvarilər Zığda toplansınlar və döyüş əmri gözləsinlər.

Denstervilin səsində bir inamsızlıq və ümidsizlik vardı. Bakı "Sentrokaspi" hökuməti və ingilislər tərəfindən möhkəm qorunurdu. Birlikdə müdafiə planı hazırlanmışdı: ordunun sol cinahına Veqsurab, sağ cinahına Kazarov komandanlıq edəcəkdi. Məntəqələr ingilis və erməni qoşunları arasında bölünmüşdü. Hacı Həsən kəndindən Biləcəriyə qədər olan məsafə kazakların nəzarəti altındaydı. İngilislər isə Biləcəridən Dərnəgülə qədər olan cəbhə xəttində yerləşmişdi.

Müdafiə mövqelərində ingilis və erməni qoşunları döyüş vəziyyətinə gətirilmişdi. General Dokuçayev "Sentrokaspi" ordusunun, polkovnik Keyvort isə ingilis ordusunun başındaydı.

Denstervil bütün hazırlıqlara baxmayaraq mütləq məğlubiyyətin ağrısını indidən yaşayırdı və bu ağrı, ruh düşgünlüyü sanki onun

mağazaları. Onların hamısını talan etmək və dayanmadan gəmilərə daşımaq lazımdır. Üstəlik neft mədənləri....Yox, yox nefti daşımağa qüvvəmiz çatmaz. Amma fabriklərin, zavodların qiymətli avadanlıqlarını söküb aparmaq lazımdır. Elə bu saat Keyvorta tapşırıq verim..."

Amma Denstervil polkovnikə başqa söz dedi:

- Keyvort, əhalidən əsgər yığımına başlayın.

- Bəlkə türklər bu gecə hücum etdi, general? Bu qısa müddətdə əsgərmi yığılar?

- Küçələrdə, məhəllələrdə, kəndlərdə xəstə, əlil, əlsiz, ayaqsız-rastınıza kim çıxsa, acımadan maşınlara doldurun və cəbhəyə yola salın.

- Əlil adamlar bizim nəyimizə lazımdı, general?

- İrəlidə onlar düzlənəcək. Əsgərlərimizi güllədən qoruyacaqlar. Əmri yerinə yetir.

- Baş üstə, general.

Denstervil Keyvortla bərabər özü də qərargahdan çıxdı. Nədən-

# "Qan içində işıq"

## *(Tarixi sənədli romandan bir parça)*

gələn tərəfə qaçmaq, yüyürmək istədi. Amma ayaqları bir-birinə dolaşdı. Ürəyi elə hövlə çırpındı ki, bu çırpıntının zərbindən dizləri əsdi.

- Mələk, ay Mələk... Hardasan?

Şəfqət bacısıydı.

- Nə olub, Nubar? Hava almağa çıxdım. Ürəyim sıxılırdı.

Nübarın gözlərinin içi gülürdü:

- Ay qız, səhərdən hamı səni axtarır. Palataları bir-birinə vurmuşuq. Elə bil quş olub göyə uçdun.

- Ürəyimi partlatma, de görək.

- Bir əsgər gəlmişdi. Ucaboy, yaraşıqlı bir türk zabiti idi. Səni soruşdu. Çox həyəcanlıydı.

- Getdi?

- Getdi.

Mələk divara söykəndi, gözlərini yumdu. Ürəyinin çırpıntısı söz soruşmağa imkan vermədi.

- Ay qız, ürəyin gedər birdən. Qaçım dərman gətirim,- Nubar onun avazımış sifətini görüb əl-ayağa düşdü.

- Lazım deyil. Keçəcək. Niyə gözləmədi?

- Komandandan yarım saatlığına icazə almışdı. Qaçaraq getdi.

- Heç olmasa məktub qoyardı...

Nubar Mələyin ağaran, qızaran sifətini, yaşla dolan gözlərini, titrəyən əllərini süzüb çəkinə-çəkinə dedi:

- Deyirsən yəni, Əlidi?

- Əlidi.

- Amma onun yaralı olduğunu özüm gördüm. Bombardman zamanı da şəhid oldu. Bu gözlərimlə gördüm. Mən onun üçün nə qədər göz yaşı tökdüm. Başa düşürsən?

- Müharibədə belə şeylər çox olur. Əli sağdı. O, gəlib sağ olduğunu çatdırdı, getdi. İnşallah, sa-

sində yerləşsə də, o, şəhərdəki qərargahda idi. Qərargah qaynaşırdı. İngilislər təşviş içindəydi: Bakıya türklərin hücumu gözlənilirdi. Lakin haradan? Qərb cəbhəsindənmi, yoxsa Şimal cəbhəsindən? İngilis kəşfiyyatı bir-birinə zidd olan məlumatlar gətirirdi.

General Denstervil daha əvvəlki kimi hökmran olduğunu göz çapdırmırdı. Türklər bu özündən müştəbeh generalın qürurunu sındırmış, onun içinə büruzə vermək istəmədiyi qorxu və vahimə salmışdılar... General əndişə və təşviş içindəydi. Bir an da olsa bu yerlərdə dayanmaq istəməzdi...

General saatlarla otağına qapılır, divar boyu vurulmuş Bakı şəhərinin xəritəsi önündə dayanır, düşünürdü. Amma bu dəfə Balaxanıdakı, Bibiheybətdəki neft buruqlarına doyumsuz iştahla baxa bilmirdi. Lakin bu döyumsuz iştah ac canavarın ağzı yağlı tikəyə çatmayan iştahı kimi təhlükəliydi: "Son anda neft dolu çənləri, buruqları, mədənləri yandırmaq, Bakını gur bir məşələ çevirmək lazımdır. Qoy Bakı yanıb kül olsun. Təki türklərə heç nə qalmasın..." General qəflətən əlini xəritədən çəkdi: ona elə gəldi ki, bu anda neft səltənəti tərəfdən üstünə saysız-hesabsız güllələr yağdı, toplar od püskürdü.

General ruhdan düşmüş halda xəritədən aralandı, masanın arxasına keçdi. Qəzəb, kin xəncər kimi içini doğradı, sanki daxildən gələn bir səs onun əsəblərini yerindən oynatdı: türklərin bu savaşda cəmi üç min əsgəri var, sizin - cənab Denstervil, on min əsgəriniz...

Polkovnik Keyvort gəldi. O da qaşqabaqlı, ruhən düşgün və pərişandı. General onu gözaltı süzdü

bilmirlər. Şəhərə girmək üçün iki yol var: qərb və şimal. Mən düşmənin şimal cəbhəsindən hücum edəcəyini təxmin edirəm. Buna görə də əsas qüvvələrimizi Heybət-Biləcəri-Balaxanı tərəfdə cəmləşdirməyi və düşməni burada qar-

bütün hissiyatını, qürur və şərəfini iflic etmişdi.

Gözlərini key-key Keyvorta zillədi və birdən yuxudan ayılmış kimi oldu: "Bakının sərvətini daşımaq lazımdır. Banklar, zənginlərin yaşadıqları möhtəşəm evlər, qızıl

sə, şəhərin talan edilməsini daha inanılmış adamlarına tapşırmaq istəyirdi.

(ardı var)

**Güllü MƏMMƏDOVA**

## UNESCO-nun Baş direktoru Beynəlxalq Caz Günü ilə əlaqədar ictimaiyyətə müraciət edib



***UNESCO-nun baş direktoru Odri Azuley Beynəlxalq Caz Günü ilə əlaqədar ictimaiyyətə müraciət edib. AZƏRTAC xəbər verir ki, müraciətdə UNESCO-nun bu il aprelin 30-da VII Beynəlxalq Caz Gününü qeyd etməkdən qürur duyduğu bildirilir. Diqqətə çatdırılır ki, bu günün qeyd olunması caz sənətinə və irsinə ehtiramın ifadəsi olmaqla yanaşı, həm də musiqinin insanları bir araya gətirmək gücünün tanınmasıdır. Caz öz başlanğıcını əsarətə qarşı müqavimətdən və azadlıq uğrunda mübarizədən götürür. Bu musiqi müxtəlif ifa üslubunda saysız-hesabsız mədəniyyətlərə daxil olub, ifadə formalarına çevrilib.***

Beynəlxalq Caz Günü bu il dünyanın 190-dan çox ölkəsində qeyd ediləcək. Builki Beynəlxalq Caz Gününə Sankt-Peterburq ev sahibliyi edəcək. Şəhərdə cazla bağlı seminarlar, ustad dərsləri, film nümayişləri olacaq və dünyanın bir çox ölkələrindən tanınmış caz musiqiçilərini bir araya gətirən "The All-Star Global Concert" proqramı təqdim ediləcək. Tədbir UNESCO, Telonius Monk Caz Sənəti İnstitutu, İqor Butman Fondunun birgə əməkdaşlığı ilə təşkil olunacaq.




Müraciətin tam mətni ilə UNESCO-nun saytında tanış olmaq mümkündür. Beynəlxalq Caz Günü münasibətilə Bakıda Beynəlxalq Muğam Mərkəzində qala-konsert olacaq. Konsertdə ABŞ-ın "Kennedy Administration" qrupu, Əməkdar artistlər Rain Sultanov və İsfar Sarabski, habelə Vadim Abramov, Elnarə Həsənli, Ruslan Hüseynov, Elvin Bəşirov və başqaları çıxış edəcəklər.

# Sarkisyan rejimi və cinayətkar xunta çökdü







***Aprelin 13-dən Ermənistanda Serj Sarkisyanın baş nazir olmasına qarşı müxalifət lideri Nikol Paşinyanın rəhbərliyi ilə etiraz aksiyalarına başlanılsa da, aprelin 17-də parlament Sarkisyanın baş nazir iddiasını təsdiqlədi. Lakin xalqın etirazından sonra uzun müddət hakimiyyətin müxtəlif postlarında vəzifə tutan Serj Sarkisyan baş nazir postundan istefa verməK məcburiyyətində qaldı.***

Maraqlıdır, uzun illərdir Ermənistana rəhbərlik edən, öz postunu gözbəbəyi kimi qoruyan, hətta bu yaxında özünü baş nazir postuna yerləşdirib bir diktator kimi bütün səlahiyyətləri əlinə alan Serj Sarkisyanın mitinqlərdən sonra istefa verməsi nədən xəbər verir? Ermənistanda nə baş verir və bu gözlənilməz istefanın pərdə arxasında nələr durur? Yəni heç kimin ağlına belə gəlməzdi ki, Sarkisyan kimi hakimiyyət hərisi belə asanlıqla öz postunu təhvil verib, vəzifəsindən imtina edə bilər. O öz istefasında soyuqqanlıq nümayiş etdirə bilər və bu, onun kimi hiyləgər biri üçün çətin deyil, hətta onun tərzinə də çox yaxındır. Amma öz ailəsində yaşanan gərginlik, anasının bu arada səhhətinin pozulması, xəstəxanaya yerləşdirilməsi ondan xəbər verir ki, hadisələrin bu şəkildə cərəyan etməsi heç də onun və yaxın ətrafının ürəyincə deyildi. Daha doğrusu, gözlənilmirdi də. Belə olan halda, bu diktatorun, bu terrorçunun, bu vəzifə hərisinin belə sakit şəkildə istefa verməsinin, təbii ki, onun özündən asılı olmayan köklü səbəbləri var.

Serj Sarkisyanın terrorçu olmaqla yanaşı millətçi, ekstremist olması, həmçinin, Ermənistanı çox sivil, mədəni bir dövlət kimi təqdim edib, dünyaya sırımaq ciddi cəhdləri heç kim üçün sirr deyil. Əksər hallarda erməniləri məzlum, yazıq, guya ki, haqları tapdalanmış bir xalq kimi təqdim edən, bundan bəhrələnməyə çalışan, yardımlara göz dikən, siyasi, maddi divident üçün hər sifətə düşən Sarkisyanın bu dəfə də öz istefasından peşəkar bir avantürist kimi istifadə etməyəcəyini kimsə deyə bilməz. Ermənilər, ələxüsus bu terrorçunun yaxın ətrafı hər hadisədən özləri üçün xeyir götürməyə çalışır və Serj Sarkisyanın vəzifəsindən uzaqlaşdırıldığı üçün bundan sonra deyə bilərlər ki, baxın, Ermənistan demokratiyanın az qala zirvəsindədir. Beynəlxalq qurumların, sivil dünya ölkələrinin düşüncələrində çaşqınlıq yaratmaq üçün, Karapetyanın əvvəl baş nazir olmasını, sonra isə baş nazirin müavini təyin edilməsini, Sarkisyanın istefasını, Karapetyanın yenidən baş nazir postuna oturması reallığı kimi oyunları və səhnəcikləri, görünür, ermənilər yetərli arqumentlər hesab edirlər və çalışacaqlar ki, bu hadisələrdən də özləri üçün qazanc götürsünlər.

Ermənilərin məqsədi "demokratiya" görüntüsü yaratmaqdır. Bəli, məhz görüntü yaratmaqla ABŞ-ın "Minilliyin çağırışı" proqramına qatılmaq niyyəti güdürlər. Onsuz da ianələr, yardımlar hesabına mövcud olan Ermənistan bu son hadisələri də şans hesab edə bilər və yenə də məqsəd bu hadisələrdən istifadə edib pul qopara bilər. Daha dəqiq desək, bu son hadisələrlə, istefa kimi görüntü xarakterli addımları ilə Amerikadan ildə 70-80 milyon dollar müftə pul qoparmaq erməni xislətinin mahiyyətini təşkil edir. ABŞ hökümətinin yardımlarından başqa hələ Avropa ölkələrinə də ümid edən ermənilər üçün gedib Avropada dilənmək heç də ar deyil və onlar buna öyrəncəlidirlər.

## Ermənistanda demokratiyadan söhbət belə gedə bilməz və cərəyan edən hadisələrin arxasında gizli məqamlar var

Əslində, heç bir demokratiyadan söhbət belə gedə bilməyən, hətta Sarkisyanın diktatura rejimi altında olan Ermənistanda cərəyan edən hadisələrin arxasında gizli məqamların olduğu diqqəti cəlb etməyə bilməz. Bəllidir ki, Rusiyanın forpostu olan Ermənistan Qərbin də maraq dairəsindədir. Eyni zamanda, Rusiya ilə Qərb arasında münasibətlər də normal deyil və hər biri, öz növbəsində, Ermənistanda mövqeyini möhkəmləndirmək, idarəetmə rıçaqlarını əlinə almaq niyyətindədir. Rusiya Ermənistanda baş verənlərə guya ki, biganə olduqlarını göstərib, Serj Sarkisyanı dəstəkləmək niyyətində olmadıqlarını da bildirdi. Amma rusların baş nazir postuna namizədi Karen Karapetyandır və onun bu postda oturmasında maraqlıdır. Qərb isə nəzarəti əlində saxlamaq üçün Nikol Paşinyanın bu posta keçməsini istəyir. Demokratiyanı alət kimi istifadə edən Qərbin əlində Paşinyan Ermənistanda nəzarəti ələ keçirmək üçün bir vasitədir. Paşinyanın "xalq kimi istəsə, o da baş nazir olacaq" tələbi də təsdiq edir ki, müxalifəti ruhlandıran Qərb bu yolla baş nazir postunda öz adamını oturdub idarəetməni ələ almaq niyyəti güdür. Qısa şəkildə desək, Rusiya-Qərb qarşıdurması fonunda Moskvaya qarşı Cənubi Qafqazdan yeni cəbhə açıldığı göz qabağındadır və Gürcüstandan sonra Ermənistanı da itirmək Kreml üçün heç arzu olunan deyil. Ermənilər isə nə Rusiyadan, nə də Qərbdən əllərini üzmək fikrində deyillər və bu baxımdan, hadisələrin hələ hansı istiqamətdə davam edəcəyini proqnozlaşdırmaq düzgün olmaz.

## Nəticəni kiminsə müəyyənləşdirdiyi və rusların bu məqamda üstünlüyü inkar edilə bilməz

Paşinyanla görüşdə, "sən qanuni hakimiyyəti hədələyirsən" deyərək, salonu tərk edən Sarkisyan, niyə bir gün sonra "Paşinyan haqlı idi, mən səhv etdim" deyərək istefa verdi? Paşinyanın həbs olunması da Sarkisyanın geri çəkilməyəcəyini göstərirdi və birdən nə dəyişdi ki, o, geri çəkiləsi də oldu, istefa verəsi də? Nəticəni kiminsə müəyyənləşdirdiyi qənaətinə gəlməkdə hər kəs haqlıdır və rusların bu məqamda üstünlüyü inkar edilə bilməz. Göründüyü kimi, hər şey bir neçə hərbi hissənin hərbçilərinin küçələrə çıxaraq, kütləyə dəstək verməsi ilə dəyişdi və Ermənistan ordusunda rusların təsirinin güclü olduğunu nəzərə alsaq, görərik ki, Kremlin onu dəstəkləyəcəyinə əmin olmayan Sarkisyan fakt qarşısında qaldı. Sarkisyan hiyləgərcəsinə çox gözəl anladı ki, hərbçilərin küçələrə çıxarılması Moskvanın nəzarətdən çıxan vəziyyəti öz xeyrinə dəyişmək gedişi idi.

Rusiya kütlənin qəzəbinin yatırılması, Karapetyanı posta gətirərək Ermənistanda nəzarətin əldə saxlanması üçün Sarkisyanı qurban verdi. Lakin nəzərə alsaq ki, Paşinyanın Sarkisyan qarşısında irəli sürdüyü, istefa, xalqın namizədi baş nazir seçilir, müvəqqəti hökumət yaradılır, növbədənkənar parlament seçkiləri keçirilir kimi dörd şərtdən, tələbdən yalnız biri, istefa qəbul edilib, bu baxımdan, Ermənistanda çaxnaşmaların bitdiyini söyləmək olmaz. Xalqın namizədi baş nazir seçilməlidir tələbi ilə Paşinyanın baş nazir seçiləcəyinə, yəni Qərbin adamının ölkəyə rəhbərlik edəcəyinə və rusların namizədinin - Karapetyanın oyundan kənarda qalmasına Rusiya heç razılaşacaq görünmür. Digər tərəfdən, Qərb özü də bu prosesdən qazanc umur. Paşinyanın prosesi dəqiqliklə idarə etməsi planın əvvəldən hazırlandığını aydın şəkildə göstərirdi və etiraz aksiyasını Qərbin başladığına zərrə qədər şübhə yeri qoymur. Bu baxımdan, ruslara qarşı geosiyasi oyunda Qərbin Ermənistandan nəsə qopartmadan əl çəkəcəyi də inandırıcı deyil. Karapetyanın Sarkisyanı əvəzləməsi faktiki olaraq, Rusiyanın nəzarəti əldən verməddiyi, hətta bir az da gücləndiyi deməkdirsə, maraqlıdır, bu zaman Qərb nə çatacaq və nə qopara bilər? Ola bilsin ki, Paşinyanın timsalında güclü alternativ yaratmaq niyyəti güdür və hətta onun hökumətdə təmsil olunması da Qərb üçün sərfəlidir. Yəni eynilə Gürcüstanda, prezident Qərbin, Baş nazir Rusiyanın olduğu kimi bir variantla razılaşma düşünülə də bilər. Lakin Rusiya-Qərb münasibətləri hansısa razılaşmanın əldə oluna biləcəyinə ümidləri puça endirir və əminliklə demək olar ki, Ermənistanda başlayan bu etiraz aksiyaları hələ başlanğıc ola bilər. Daha dəqiq desək, öyunbazlıqda, müxtəlif hiyləgərlikdə ad qazanan, tayı bərabəri olmayan Ermənistan özü hələ uzun müddət böyük oyunların meydançasına çevriləcək.

## Bu gün səfalət içində olan Ermənistan Sarkisyanın əsiridir

Ermənilər də artıq çoxdan başa düşürdülər ki, Sarkisyan Qarabağ kartından istifadə edərək erməni xalqını istismar edir. Başa düşürdülər ki, bugünkü səfalət içində olan Ermənistan Sarkisyanın əsiridir və ölkədə hökm sürən aclığın, acınacaqlı vəziyyətin səbəbkarı bilavasitə onun özüdür. Ermənilər yaxşı bilirlər ki, bu terrorçu 20 ildən çoxdur Dağlıq Qarabağı öz oyunları üçün istifadə edir və bu oyunların bir tərəfdən də qurbanı elə ermənilərin özü olub. Sarkisyan öz terrorçuluq siyasəti ilə təmsil etdiyi xalqı girov saxlayıb, Ermənistanın marginallaşmasına səbəb olub. Məhz buna görə erməni xalqının özü də cinayətkar xuntaya öz yerini göstərmək məcburiyyətində qaldı. Sarkisyan kimi terrorçunun başçılıq etdiyi cinayətkar rejimdən bezən, onun hakimiyyətinin acı nəticələrini dadan xalq hər nə olursa-olsun Serj Sarkisyanın baş nazir postundan uzaqlaşmasını tələb etməkdə, əlbəttə ki, haqlı idi. Belə cinayətkardan, terrorçudan rəhbər ola da bilməzdi və hadisələr sübut etdi ki, erməni xalqı ölkəni öz biznesinə çevirən mafioz klandan canını qurtarmaqda israrlıdır. Artıq 10 ildir Ermənistanda hakimiyyəti zəbt etmiş Serj Sarkisyan epoxası başa çatdı.

Etirazlar öz nəticəsini verdi və Sarkisyan xalqın istefa tələbini qəbul etməyə məcbur qaldı. Sarkisyanın yeritdiyi işğalçılıq siyasəti nəticəsində dilənçi kökünə düşən, sürünə-sürünə yaşamaq məcburiyyətində qalan, eyni zamanda, özlərinin dediyi kimi, "bu lənətə gəlmiş ölkəni tərk etmək"dən başqa çarələri qalmayan xalq ondan imtina etdi. Sarkisyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yeritdiyi qeyri-konstruktiv mövqe bu gün Ermənistanın bu ağır vəziyyətini şərtləndirən amillər sırasında mühüm mövqeyə malik olduğunu dərk edən erməni xalqının ondan imtina etməkdən başqa çarəsi qalmamışdı.

## İndi Sarkisyanı əvəz edəcək şəxsin praqmatik siyasətçi olmasına erməni xalqının çox böyük ehtiyacı var

Regionda reallaşdırılan bütün beynəlxalq layihələrdə iştirak etməkdən məhrum olan Ermənistan artıq itirdiklərinin fərqindədir və marginallaşmasının səbəbini çox yaxşı bilir. Ermənilər bütün bunların səbəbinin, yəni regionda küncə qısılmış və ianələrə, yardımlara möhtac qalmış bir vəziyyətə düşmələrinin əsas səbəbinin məhz Sarkisyan rejiminin yürütdüyü işğalçılıq siyasəti, terrorçuluq olduğunu da gözəl başa düşürlər. Dağlıq Qarabağın işğal edilməsi faktını da, Xocalıda törədilən dəhşətli insanlıq dramının insanlıq normalarına sığmadığını da, bu çirkin əməllərin törədicisinin Serj Sarkisyan olduğunu da bilirlər. Hətta bunu da bilirlər ki, Xocalı kimi bir dəhşətli insanlıq dramının törədicisinin, yəni Sarkisyanın, əslində, bu cinayətlərə görə mühakimə olunması da labüddür və onun boyun qaçırması mümkünsüzdür. Heç bir analoqu, oxşarı olmayan bu soyqırımda iştirak edən, hətta rəhbərlik edən bir terrorçu beynəlxalq məhkəmə qarşısında cavab verməlidir. Sözsüz ki, hazırda baş verən hadisələr, onun öz postundan uzaqlaşdırılması göstərir ki, heç də erməni xalqı bu terrorçunun arxasında deyil və bu mənada tam əminliklə demək olar ki, tezliklə Sarkisyan müttəhimlər kürsüsündə oturmalı olacaq və törətdiyi qətliamlara, vandallığa görə cavab verəcək.

İndi Sarkisyanı əvəz edəcək şəxsin praqmatik siyasətçi olmasına erməni xalqının çox böyük ehtiyacı var. Elə bir adam Ermənistanda hakimiyyətə gətirilməlidir ki, o, ölkənin düşdüyü çıxılmaz vəziyyətin yeganə səbəbinin onun işğalçılıq siyasəti olduğunu dərk etsin və məhz bu siyasət nəticəsində bumeranq effekti ilə üz-üzə qaldığının, labirintə düşdüyünün, dalana dirəndiyinin fərqində olsun. Ermənistanın yeni baş naziri fərqli bir siyasət həyata keçirməlidir, çünki Sarkisyan siyasətinin davamı mövcud çıxılmaz vəziyyətin davamı deməkdir. Ermənistanda elə bir rəhbər təyin edilməlidir ki, o, Azərbaycanla danışıqlara gəlib praqmatik bir mövqe ortaya qoysun və ermənilər bilməlidirlər ki, ölkənin gələcəyi yalnız və yalnız bu münaqişənin ədalətli həllindən, Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarılmasından keçir.

*İnam İMRANOĞLU*

# ABŞ Dövlət Departamentinin qərəzi dəyişilməzdir

*Amerikanın bu siyasi qurumu verdiyi hesabatları ilə özünə olan inamı daha da azaldıb*




***Dəfələrlə sübuta yetirilib ki, rəsmi Vaşinqton Azərbaycana münasibətdə ədalətli mövqe hisslərini itirir. Belə ki, ABŞ Dövlət Departamentinin ölkəmizlə bağlı seçkilərə, söz və ifadə azadlığına aid ictimailəşdirdiyi növbəti hesabatı da ikili standartlara, eləcə də qərəzə söykənib. Beləliklə, Amerikanın bu siyasi qurumu özünə olan inamı daha da azaldıb.***

Ümumiyyətlə, ölkəmizin ictimaiyyəti də şahiddir ki, ABŞ Dövlət Departamentinin hesabatları heç vaxt Azərbaycandakı mövcud inkişaf və tərəqqini, insan hüquqlarının azadlığının təminatını, demokratik prosesləri, seçki azadlığını əks etdirməyib. Yəni reallıq ortada ola-ola Amerikanın siyasi dairələri tamamilə əks mövqedən çıxış edib. Söz yox ki, bunun da əsasında müstəqil Azərbaycanın heç bir dövlətdən asılı olmaması, qətiyyətli siyasət yürütməsi, o cümlədən, müsəlman ölkəsi olaraq dünyada söz sahibinə çevrilməsi dayanır. Necə deyərlər, son qərəzli hesabat da bu kimi faktorlara kölgə salmağa yönəlib. Daha dəqiq desək, illərdir özünü göstərən ikili standartın mövcudluğu yenə də hiss edilir. Halbuki...

## Qərb anti-demokratiyasına göz yumulur, Azərbaycana gələndə dərhal qərəz, böhtan və yalanlar boya-boy düzülür!

Halbuki bu gün demək olar ki, bütün Qərb dövlətlərində, yəni xristian klubunun mövcud olduğu ölkələrdə, o cümlədən ABŞ-da müxtəlif məsələlərə etiraz edən narazı insanlar, etirazçılar polis atlarının ayaqları altında əzilir, dəyənəklə möhkəm döyülür, ən qəddar üsullardan istifadə edilir. Lakin belə olan vəziyyətdə heç kəs insan haqlarının pozulduğundan danışmır. Maraqlıdır, nəyə görə? Bu sualın cavabı çox bəsitdir - sadəcə, belə məsələlərə münasibət bildirib, ittihamlar etmək Qərb qurumlarına sərf etmir. Azərbaycana gələndə isə, dərhal qərəz, böhtan və yalanlar boya-boy düzülür!

Elə də uzağa getməyərək, ABŞ Dövlət Departamentinin "siyasi məhbus" məsələsində də canfəşanlıqlarını xatırlaya bilərik. Çünki o da sirr deyil ki, artıq 25 ilə yaxındır ki, Azərbaycanda "siyasi məhbus" məsələsini şişirtməklə məşğul olan müəyyən qruplar var. Birincisi, bu terminin dəqiq nəyi ifadə etdiyi məlum deyil. Müxtəlif ölkələrdə "siyasi məhbus" anlayışına fərqli yanaşmalar mövcuddur. İkincisi, Cənub Qafqaz ölkələrinin birində "siyasi məhbus" sayılan, regionun başqa dövlətində belə adlandırılmır. Üçüncüsü, Qərb ölkələri özlərində separatizmə qarşı kəskin mövqe nümayiş etdirirlər, lakin müstəqilliyini yeni əldə etmiş dövlətlərə münasibətdə tamamilə fərqli mövqe tuturlar. Onlar başqalarına məsləhət bildikləri qətiyyən özlərinə aid etmirlər. Səbəbi yenə də yuxarıda qeyd edilən məsələlərdir - Azərbaycan yüksək və sürətli tərəqqi yolunu tutub, dünyada nüfuzu artır, ən iri regional və beynəlxalq layihələrdə təşəbbüskar və iştirakçıya çevrilir, xalqın rifah halı daha da yaxşılaşır, sabitlik hökm sürür və s. Əlbəttə, qərəzli tərəflər bundan böyük nigarançılıq keçirir, təlaşa düşürlər. Çünki çox qısa zaman kəsimində Azərbaycan lider dövlətlər sırasında öz yerini möhkəmləndirəcək. Bu isə Qərbə heç də yaxşı təsir etmir, bir sözlə, qısqanclıq hissi bu kimi hesabatlarda özünü açıq-aşkar göstərir.

## Təsadüfi deyil ki, Amerikanın özünün aparıcı analitikləri demokratiyanın böhranından yazırlar

Onu da əminliklə deyə bilərik ki, ABŞ Dövlət Departamentinin belə hesabatlar hazırlaması reallıqda bu qurumun özünü nüfuzdan salır. Ona olan inam kəskin surətdə azalır. Ədalət prinsipinin pozulduğu yerdə səmimiyyətdən, obyektivlikdən və hörmətdən danışmaq ümumiyyətlə, imkansızdır. Təsadüfi deyil ki, Amerikanın özünün aparıcı analitikləri demokratiyanın böhranından yazırlar. Orada əsas problemin siyasi islahatlarla bağlı olduğu tezisi getdikcə özünə daha çox tərəfdar toplayır. Bütün bunlara görə, Azərbaycanla bağlı ABŞ Dövlət Departamentinin hesabatında qeyd olunanlar ciddi qəbul edilə bilməz. Onlar Cənub Qafqazda geosiyasi vəziyyəti daha da mürəkkəbləşdirir. Məsələnin ən pis tərəflərindən biri də məhz bundan ibarətdir.

***Rövşən NURƏDDİNOĞLU***

# ADU Türk Universitetlər Birliyinin üzvü seçilib

***Azərbaycan Dillər Universitetinin (ADU) beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova Bişkekin Qırğızıstan-Türkiyə Manas Universitetində keçirilən, Türk Universitetlər Birliyinin üçüncü ümumi yığıncağında iştirak edib. Yığıncaqda ADU Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) nəzdində fəaliyyət göstərən Türk Universitetlər Birliyinə üzv seçilib. Türkdilli ölkələr arasında işbirliyini təmin edən bu beynəlxalq qurum 2009-cu ildən fəaliyyət göstərir. Azərbaycan, Türkiyə, Qırğızıstan və Qazaxıstan adıçəkilən TDƏŞ-in yaradıcılarıdır.***




Tədbirdə J.Qəribova ADU-nun yaranma və inkişaf tarixi, fəaliyyəti, beynəlxalq əlaqələri, proqram və qrant layihələrində iştirakı barədə təqdimatla çıxış edib. Universitetdə fəaliyyət göstərən fakültə və kafedralar haqqında məlumat verən J.Qəribova buradakı departament, mərkəz, şöbə və elmi-tədqiqat laboratoriyalarının fəaliyyətindən də söz açıb.

ADU-nun dünyanın bir çox universitet və təşkilatları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq müqavilələri imzaladığını, beynəlxalq layihələrdə iştirak etdiyini diqqətə çatdıran J.Qəribova son on ildə 500-dən çox tələbənin bu proqramlar çərçivəsində dünyanın müxtəlif universitetlərində təhsil aldığını deyib. Prorektor hər il ADU-da universitetin uğurlu fəaliyyəti nəticəsində ingilis, alman, fransız, macar, polyak, italyan, ispan, yapon, Koreya, Çin və digər dillərin tədrisi üzrə dünyanın bir çox ölkələrindən müəllim və mütəxəssislərin tədris proqramlarına cəlb edildiklərini, eyni zamanda, xarici tələbələrin təhsil aldığını qeyd edib. J.Qəribova, həmçinin ADU-nun Türkiyənin bir çox universitetləri ilə müqavilə imzaladığını, "Erasmus +", Mevlana proqramı çərçivəsində əməkdaşlıq etdiyini bildirib.

# "Nar" Ümumdünya kitab günündə uşaqları hədiyyələrlə təbrik etdi

***23 aprel 2018-ci il tarixdə, Ümumdünya kitab günü ilə əlaqədar olaraq, "Nar" Bakıda yerləşən internat məktəblərindən birinə 100-dək kitab hədiyyə etdi. Aksiyanın keçirilməsində məqsəd uşaqları oxumağa həvəsləndirmək, onlarda kitab oxumaq vərdişinin formalaşmasına dəstək olmaq və təhsilin önəmini aşılamaqdan ibarət idi.***



Azərbaycan Respublikası Təhsil nazirliyi ilə birgə həyata keçirilən aksiya çərçivəsində təqdim edilən kitablar əsasən məktəbəqədər yaş qrupunu və ibtidai sinifləri əhatə edir. Bura nağıllar, məktəbə hazırlıq üçün əlifba, uşaq ensiklopediyası, uşaq ədəbiyyatı, lügətlər və bu qəbildən olan digər kitablar daxildir. Əlavə olaraq, qələm, dəftər, rəngli karandaşlar, rəsm dəftərləri və digər dəftərxana ləvazimatları da uşaqlara təqdim edildi.

"Nar" özünün çoxşaxəli korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində mütəmadi olaraq müxtəlif tədbir və aksiyalar həyata keçirir. Elm, təhsil və maariflənmənin inkişafına dəstək "Nar" KSM strategiyasının əsas istiqamətlərindəndir. Uzun illərdir ki, bu çərçivədə mobil operator maariflənmənin təşviqi məqsədilə genişmiqyaslı aksiyalar təşkil edir, müxtəlif bilik müsabiqələri və intellektual yarışların sponsoru qismində çıxış edir. Gənc nəslin motivasiyası, təhsil və maariflənməyə olan marağın artırılması bu mənada xüsusi önəm kəsb edir.

"Nar" KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Ermənilər terror vasitəsilə özlərinin saxta "soyqırım"larının ildönümünü qeyd edirlər!







Dünən Torontonun şimalındakı Riçmond-Hill adlı şəhərətrafı bölgədən olan 25 yaşlı Alek Minassyan özünün idarə etdiyi ağ furqonu Kanadanın ən iri şəhərinin mərkəzində piyadaların üzərinə sürüb. Polisin məlumatına görə, şübhələnən şəxs bu əməli qəsdən törədib. Ermoni A.Minassyan dədə-babasının 103 il bundan əvvəl Anadolunun şərq hissəsində satqın qiyamı, fərariliyi, dinc kömeksiz müsəlman sakinlərə qarşı kütləvi qırğını nəticəsində Osmanlı imperiyasını sövq etdikləri vətəndaş müharibəsində biabırçı şəkildə məğlub olmaları ilə əlaqədar öz xalqının hüznünü beləcə "orijinal" şəkildə ifadə edib.

Başa düşürük, ermənilər məğlubiyyət acısını, xüsusən də rüsvayçı məğlubiyyəti heç də asanlıqla dəf edə bilmirlər. Lakin öz zəhərini yoldan keçən günahsız, uşaqları ilə gəzintiyə çıxan insanların üstünə tökmək nəyə lazımdır?

Ola bilər, bu terror hadisəsi bir neçə il bundan əvvəl təlaşkənlik edərək erməni mövqeyindən çıxış edərək, qondarma "erməni soyqırımı"nın tanınması barədə qətnamə qəbul edən Kanada qanunvericilərinə bir dərs olsun və erməni icmasının qara "minnətdarlıq"ları barədə fikirləşməyə məcbur etsin.

# Tərtərdə “Heydər Əliyev və Azərbaycan qadını” mövzusunda dəyirmi masa keçirilib



***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar tədbirlər planına uyğun olaraq, YAP Tərtər rayon təşkilatı qadınlar şurasının təşkilatçılığı ilə təşkilatın qərargahında “Heydər Əliyev və Azərbaycan qadını” mövzusunda dəyirmi masa keçirilib.***

Dəyirmi masanı giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatı qadınlar şurasının sədr müavini Samirə Zeynalova Ümummilli Lider, müasir Azərbaycan dövlətinin Qurucusu Heydər Əliyevin həyat və fəaliyyətindən, Onun xalqımız qarşısındakı tarixi xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldiyi zaman geridə qalmış Azərbaycanı hərtərəfli inkişaf etmiş bir respublikaya çevirmişdisə, ikinci dəfə hakimiyyətə qayıdışı dövründə yenicə müstəqillik qazanmış, elə ilk gündən daxili və xarici irticaçı qüvvələrin məngənəsində boğularaq bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi altında olan Azərbaycanı xaos, anarxiya, separatizm, iqtisadi və siyasi tənəzzüldən xilas edərək müasir, dinamik inkişaf edən, güclü dövlətə çevirmişdir: “Ulu Öndərin yürütdüyü daxili siyasətin başlıca istiqamətlərindən biri olan gender siyasəti də qısa zamanda bəhrəsini verdi. Onun qayğı və diqqəti ilə Azərbaycan qadını ölkənin quruculuq-abadlıq işlərində uğurlu göstəricilərlə çıxış etməklə yanaşı, siyasi aləmdə də potensialını ortalığa qoymağa müvəffəq oldu”.

Mövzu ətrafında partiya fəallarından şəhər 6 saylı tam orta məktəbin müəllimləri Xalidə Quliyeva, Çimnaz Əliyeva, 3 saylı ümumi orta məktəbin müəllimi Kifayət Kərimova, şəhər təhsil şöbəsinin metodisti Gülxar Abbasova, rayon Tarix-Diyarşünaslıq Muzeyinin müdir əvəzi Aybəniz Məmmədova, Heydər Əliyev Mərkəzinin direktoru Səlimə Yusibova və digərləri çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dönəmlərdə Azərbaycan qadınına göstərilən diqqət və qayğıdan, onların ölkənin ictimai-siyasi həyatında oynadığı roldan danışıblar. Bildirilib ki, Azərbaycan qadını bu gün müstəqil Azərbaycan dövlətinin vətəndaşı olaraq, öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirir. Azərbaycan qadını bu günümüz və xoşbəxt gələcəyimiz üçün Ulu Öndər Heydər Əliyev ideyalarına və bu ideyaları həyata keçirən ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə borcludur və hər zaman Onun yanında olmaqdan qürur duyur.

**ZÜMRÜD**

# Ukraynalıların Dünya Konqresinin prezidenti Multikulturalizm Mərkəzinin qonağı olub



***Ukraynalıların Dünya Konqresinin prezidenti Yevgeni Czolijin rəhbərliyi ilə nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin qonağı olub. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov qonaqları qəbul edərək, onlara Mərkəzin fəaliyyəti, ölkəmizdə uğurla davam etdirilən multikultural mühit haqqında ətraflı məlumat verib.***



R.Həsənov bildirib ki, Prezident İlham Əliyev multikulturalizmin qorunub saxlanmasına böyük önəm verir. Azərbaycanda tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması dövlət başçısının apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir, həyat tərzidir. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. O qeyd edib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurla davamının nəticəsidir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi təmsil etdiyi qurumun fəaliyyət istiqamətindən də danışıb. Qonağın diqqətinə çatdırılıb ki, bu gün Azərbaycan multikulturalizmi fənni dünyanın iyirmiyə yaxın universitetində tədris olunur. BBMM-in doqquz ölkədə filialı var və sonuncu filial bu ilin əvvəlində ABŞ-da açılıb.

Ukraynalıların Dünya Konqresinin prezidenti Yevgeni Czolij bildirib ki, Azərbaycan kimi çoxmillətli, çoxmədəniyyətli, multikultural və tolerant bir ölkə öz nümunəsi ilə digər ölkələri də həvəsləndirir və onun təcrübəsindən istifadə olunması zəruri edir. Qonaq öz ölkəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin filialının açılması və eyni zamanda, Ukraynanın ali təhsil məktəblərində “Azərbaycan multikulturalizmi” fənninin tədris edilməsinin məqsədəmüvafiq olması barədə arzusunu da dilə gətirib. Görüşdə UDK Brüssel Beynəlxalq Təşkilatı Missiyasının direktoru Marina Yaroşeviç, Ukraynanın Azərbaycan Respublikasında səfirliyinin nümayəndəsi Oleksandr Sençenko və Azərbaycanda Ukrayna Konqresinin rəhbəri Yuriy Osadçenko iştirak edib.

**NƏZAKƏT**

# Bakcell biznes qurmaq istəyən gənclərin xəyallarını gerçəkləşdirir

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti “SOS Uşaq Kəndləri-Azərbaycan” Assosiasiyası İctimai Birliyinin himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq üçün maliyyə vəsaiti ayırıb. Bu dəstək sayəsində 3 nəfər gənc öz kiçik bizneslərini qurmaq imkanı əldə edib.***



“Bakcell”in dəstəyi sayəsində icra olunan “Gənclərin Karyera və İnkişaf Mərkəzi” layihəsində öz biznes planı ilə fərqlənmiş və fəaliyyətə artıq hazır olan bizneslərdən birinin açılışı olub. “Floristika Gül Dükanı”nın açılış mərasimində “SOS Uşaq Kəndləri-Azərbaycan” Assosiasiyası, Bakcell şirkətinin nümayəndələri, ictimai xadimlər və kütləvi informasiya vasitələri nümayəndələri iştirak ediblər. Yeni dükanın sahibi Kazımlı Seymur dövlət uşaq müəssisəsində boya-başa çatıb və gənc vaxtlarından gül mağazasında köməkçi işləyib. Biznesmen olmaq arzusu ilə 7 il ərzində işçi kimi gül biznesi ilə məşğul olan Seymur öz gül mağazasını açmağa iddialı olub və mükəmməl biznes plan tərtib edərək layihədə qalib olub.

“Bakcell şirkəti ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahın yaxşılaşdırılmasına yönəlmiş bir çox layihəni uğurla həyata keçirir. Biz çox şadıq ki, “SOS Uşaq Kəndləri-Azərbaycan” ilə uzun illər öncə başlanılmış əməkdaşlığımız öz bəhrəsini verməyə davam edir və dəstək göstərdiyimiz gənclərin artıq biznes sahiblərinə çevrilməsini görməkdən qürur duyuruq” deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

“Mən uzun illərdir ki biznes qurmaq və gül dükanı açmaq arzusunda idim və bu gözəl layihə sayəsində mənim xəyallarım gerçəyə çevrilib. Əminəm ki, bu təcrübə gələcək həyatima da öz töhfəsini verəcək. Mənim üstümdə əməyi olan “SOS Uşaq Kəndləri-Azərbaycan” təşkilatına və “Bakcell” şirkətinə sonsuz təşəkkürümü bildirirəm”, deyə Seymur Kazımlı bildirib.

Qeyd edək ki, layihənin ötən il həyata keçirilən birinci mərhələsində “SOS Uşaq Kəndləri - Azərbaycan” Assosiasiyasının himayəsində olan 15 gənc “Öz biznesinə başla və təkmilləşdir” adlı təlimlərdə iştirak edib. Qiymətləndirmə nəticəsində ən yüksək nəticələr nümayiş etdirən 3 uğurlu biznes layihəsi Bakcell şirkəti tərəfindən maliyyələşdirilib. Bu biznes layihələri Bakı şəhərində “Floristika gül dükanı” və “Çay evi”, Gəncə şəhərindən isə “Meyvə bazarı” layihələridir.

“Bu layihəyə dövlətin də yaxından dəstəklədiyi Beynəlxalq Əmək Təşkilatının (BƏT) özünəməşğulluq proqramının bir hissəsi kimi baxmaq lazımdır. Mən çox şadam ki, Bakcell şirkəti ilə başladığımız bu təşəbbüs artıq öz bəhrəsini verməyə başlayıb. Biz bu istiqamətdə əməkdaşlığımızı davam etdirəcəyik və mən inanıram ki, gələcəkdə daha çox gənc insan bu layihədən faydalanacaq”, deyə “SOS Uşaq Kəndləri-Azərbaycan” təşkilatının Milli Direktoru Rəşad Hüseynov bildirib. Qiymətləndirmə zamanı əsas meyarlardan biri biznes planın düzgün hazırlanması, ideyanın real bazar şərtlərində özünü nə qədər doğruldacağı, bu işdə müraciət edənin təcrübəsi və biznes planı təqdim edən gəncin sosial durumu nəzərə alınıb. Qalib gələn gənclərin hər 3-ü təqdim etdikləri biznes ideya üzrə iş təcrübələri var.

Xatırladaq ki, Bakcell şirkəti 2009-cu ildən etibarən “SOS Uşaq Kəndləri-Azərbaycan” Assosiasiyası İB ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir.

# Ekoloji təmiz arı məhsullarının istehsalına başlanılıb

***Bütün dünyada ekoloji təmiz arı məhsullarının istehsalına başlanılıb. Xüsusi sertifikatlaşdırma təşkilatları var ki, onlar istehsalçı ilə müqavilə bağlayıb öz şərtlərini təklif edirlər. Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov bildirilib.***

Onun sözlərinə görə, bu məqsədlə 1 il keçid dövrü verilir ki, fermer öz təsərrüfatını sertifikat verən təşkilatın şərtlərinə uyğunlaşdırsın: “Fermerlər qarşısında bir neçə şərt qoyulur ki, onlardan biri də kimyəvi dərmanlardan istifadə olunmamasıdır. Bu şərtlər yerinə yetirilərsə, həmin məhsula beynəlxalq təşkilatlar tərəfindən orqanik sertifikat verilir”.

Lakin sertifikatların verilməsi prosesindəki tariflərin yüksək olduğunu söyləyən B.Həsrətovun fikrincə, xərclərin azaldılması üçün bu işdə maraqlı olan bir neçə arıçı birləşməlidir. “Biz orqanik sertifikat alsaq, Avropa bazarına çıxmaq imkanı əldə edəcəyik, dünyanın istənilən ölkəsində isə orqanik bala ehtiyac var”, - deyə assosiasiya sədri vurğulayıb.

TƏRS BAXIŞ

# Azərbaycan "müxalifəti"nin Yerevan eyforiyası

## Siyasi spekulyasiya - haraya və nə zamana qədər...

**Özlərini "müxalifət" hesab edib, zorən ictimai rəyə sırınan dağıdıcılar bu dəfə də Ermənistan xülyalarına qapılıblar. Necə ki, vaxtilə Gürcüstanda, Ukraynada baş verən hadisələrdən "bəhrələnməyə" çalışırdılarsa, indi də Ermənistanda baş verən hadisələr müxalif "liderləri" necə deyərlər, həvəsləndirməyə başlayıb.**

Sosial şəbəkələrdə ermənilərin Serj Sarkisyanı devirən "Addım" hərəkatının lideri Nikol Paşinyanın hazırkı məqamda ölkə "müxalifətçiləri"nin az qala "qəhrəmanı elan olunub". Bəli, bu kimi siyasi düşüklük amili yalnız özlərini "müxalifət" hesab edən Əli Kərimlidən və onun ətrafından çıxa bilər. Görünür, bu səbəbdən, indi də "Paşinyan gedişi" ətrafında baş sındırır, guya bunula Azərbaycanda nə isə edə biləcəklərini düşünürlər. Halbuki, seçkilərdən öncə keçirilən rüsvayçı mitinqlərində onların sayının uzağı 1000 nəfərə zorla çatdırıldığı danılmaz faktdır!

### "Milli Şura" adlı dağıdıcı müxalifət qaragüruhu indi bu yolu tutub və yenidən cuşa gəlib

Bu arada digər bir məsələ diqqət çəkməkdədir. Xalq dəstəyindən məhrum olmuş sözdə müxalifət "liderləri"nin ermənilərdən bəhrələnmək sevdaları onların nə qədər xəyanətkar ünsürlər olduğunu kifayət qədər təsdiq edir. Ümumiyyətlə, "Milli Şura" adlı dağıdıcı müxalifət qaragüruhu indi bu yolu tutub və yenidən cuşa gəlib. İndi də Yerevan hadisələrinin guya Bakıda təkrar olunması ətrafında spekulyasiya edən "müxalifətçilər" unudurlar ki, öz aksiyalarına qatılanların əksəriyyəti öz qohum-əqrəbaları olub. Sual yaranır: məgər Nikol Paşinyanın da ətrafında öz qohum-əqrəbalarımı dayanıb? Əlbəttə ki, belə deyil. O, Serj Sarkisyan rejimini devirmək qərarını ortaya qoyduqdan sonra xalqın böyük hissəsi ətrafında yığıldı və nəticədə Sarkisyan hərbi xunta rejimi istefa verdi. Fəqət, Ə.Kərimli, C.Həsənli, G.Hacıbəyli və qeyriləri öz ətraflarına ayrı-ayrılıqda 10-15 nəfərdən artıq adam toplaya bilmirlər. Dərk etmirlər ki, xalq bunların köhnə-külüş siyasətbazlıqlarından bezib və rədd edir. Həmçinin...



### Paşinyansevərlər klubu

Həmçinin, sosial baza yoxluğu, sadəcə "söyüş qrupları" vasitəsilə balaca feysbukun qəzəb püskürən azsaylı klaviatura qəhrəmanları ilə "məqsədə" getməklə, "uğurlu siyasət" apardıqlarını sanırlar. Yalnız özləri, başqaları isə bunların fikirlərini sadəcə, qəbul etmirlər. Bu, həm də onu göstərir ki, həmin adamların ideoloji dayanıqlığı sıfırdır və ondan artığı da deyil! İstər solçu olsun, istər sağçı, istər liberal olsun, istər ifrat dindar, istər ateist olsun, istərsə də qeyrisi - heç fərq etməz, bu siyasətbaz spekulyantlar, harada üsyan, qiyam olursa, onun guya Azərbaycanda da baş verəcəyini "ağıllı-ağıllı" elan edənlər milli maraqlara qarşı şəxsi mənafeləri üçün hamıdan, hər kəsdən, hətta olmayan bir şeydən yararlanmağa çalışırlar. İndi də Paşinyansevərlər klubunun üzvlərinə çevrilən müxalifətçilər bir həqiqəti unudurlar ki, Azərbaycan xalqı heç vaxt bu adamların siyasi oyunlarına aldanmayacaq, getməyəcək. Xalqımız gözəl anlayır ki, ölkədəki siyasi sabitliyin və inkişafın yeganə qarantı Prezident İlham Əliyevdir və Onun ətrafında milyonlarla insan birləşib, belə də olacaq. Sözdə müxalifətçilər isə elə Paşinyanın kölgəsi altında növbəti spekulyasiyaları istiqamətində özləri-özlərini aldatsınlar. Amma haraya və nə zamana qədər. Əslində, yox olan birilərinin özlərini var "kimi" göstərmələri, həqiqətən də, çox gülünc görünür. Özü də Yerevan eyforiyası altında....

**Rövşən NURƏDDİNOĞLU**

# "Milli Şura" arxivlikdir

## Mais Səfərli: "Milli Şura" və ora daxil olan siyasi partiyalar artıq cəmiyyətin dəstəyindən məhrum olublar "

***- Mais bəy, məlumatlara görə, "Milli Şura" təmsilçiləri ölkədə qarışıqlıq salmaq üçün pozucu planlar hazırlayırlar. Sizcə, nədən onlar sivil mübarizədən imtina edib, məkirli planlara meyil göstərirlər?***

- "Milli Şura" və ora daxil olan siyasi partiyalar artıq cəmiyyətin dəstəyindən məhrum olublar. Həmin partiyaların da göstərə biləcəyi bir fəaliyyət yoxdur. Yəni bu günə qədər müxalifət partiyaları normal bir fəaliyyət göstərə bilməyiblər. Bunun da səbəbi müxalifət partiya sədrlərinin başqalarının ağlı və göstərişi ilə hərəkət etmələridir. Deməli olar ki, "Milli Şura"ya daxil olan partiya liderlərinin ətrafında 5-10 nəfər özlərinə yaxın adamlarından başqa heç kəs yoxdur. Ona görə də, müxalifət bu cür mini aksiyalar keçirməklə bir müddət də olsa, gündəmdə qalaraq Qərbdə olan bəzi dairələrin diqqətini özlərinə cəlb etməyə çalışırlar. Bu gün müxalifətin özü də çox yaxşı bilir ki, anormal qərarları və addımları ilə yalnız özlərini aldadırlar. Çünki onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur.

***- ABŞ Dövlət Departamenti və ATƏT Azərbaycana qarşı qərəz nümayiş etdirdi. Müxalifətin də eyni mövqe sərgiləməsi anti-milli qüvvələrin Azərbaycana qarşı eyni xətti icra etdiklərini demək olarmı?***

- Ümumiyyətlə, ATƏT və ABŞ Dövlət Departamenti ənənəvi amplualarından çıxış edərək, Azərbaycana qarşı çox qərəzli mövqe nümayiş edirdilər. Xüsusilə də, Azərbaycanda keçirilmiş sonuncu prezident seçkiləri ilə bağlı. Bildiyiniz kimi, ATƏT-dən başqa da bu seçkiləri müşahidə edən, seçkiləri izləyən çoxlu sayda beynəlxalq təşkilatlar və ayrı-ayrı dövlətlərdən olan nümayəndələr var idi. Onların hamısının birmənalı olaraq, rəyi bundan ibarət oldu ki, Azərbaycanda keçirilmiş prezident seçkiləri azad, ədalətli, demokratik və şəffaf şəkildə keçirilib və xalqın iradəsini əks etdirib. Amma ATƏT-in müşahidəçiləri bunun əksini qeyd etdilər və bu da onu göstərdi ki, bu, qərəzli bir mövqedir. Yəni bu qədər təşkilatın, müşahidəçilərin qarşısında ATƏT-in belə mövqe nümayiş etdirməsi müəyyən şübhələr doğurur. Şübhələr isə ondan ibarətdir ki, ATƏT artıq bu və ya digər böyük dövlətlərin əlində bir siyasi alətə çevrilib. Əslində, ATƏT-in əsas missiyası nədir? Avropada sülhü və əməkdaşlığı təmin etməkdən ibarətdir. Amma bu gün məlum olduğu kimi, elə ən çox münaqişələr, sülhün pozulduğu məkan hansıdır? ATƏT-in əhatə etdiyi ərazilər. Nəyə görə ATƏT bu münaqişələrin öhdəsindən gəlmir, həllinə çalışmır? Çünki ATƏT artıq öz missiyasını yerinə yetirmir. Yəni öz missiyasından kənar işlərə baş vurur. Seçki məsələlərində isə onlar dövlətlərin daxili işlərinə qarışmaq yolu tuturlar.



Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir

***- Bu qurumun ölkəmizə qarşı qərəzinin səbəbi nədir?***

- Hesab edirəm ki, ikili standartlardan çıxış etdiyi üçün ATƏT bu vəziyyətdə fəaliyyət göstərə bilməz. Yəni o yenilənməlidir. Bir sözlə, ATƏT öz öhdəsinə düşən və qarşısında duran məsələləri həll etməlidir. Əgər ATƏT istəsəydi Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün artıq çoxdan müəyyən formalar tapardı. ATƏT Ermənistana təzyiq etmək üçün başqa yollar seçə və başqa vasitələrə əl ata bilərdi. Amma bunları etmir. Deməli, burdan görmək olur ki, ATƏT bu və ya digər siyasi dairələrin əlində oyuncağa çevrilib. ATƏT-in qərəzli mövqeyindən sonra cəbhədə atəşkəsin pozulması və "Milli Şura" deyilən qondarma qurumun mitinq taktikasını seçməsi Qərbdəki bəzi dairələrin Azərbaycana qarşı qərəzli yanaşmasının göstəricisidir.

**GÜLYANƏ**



# Müxalifətin siyasi biznesi

**Təhmasib Novruzov**

***Hər kəs kimi mənim də anlamadığım çox şey var. Məsələn, dünyanın bəzi-bəzi insan haqlarından, ədalətdən, ağız dolusu danışan böyük dövlətlərinin erməni sevgisi! Və ya dünya güclərinin son illər tüğyan edən anti-islam meyilləri və sair və ilaxır. Amma anlamağa çalışdığım, heç vəchlə anlaya bilmədiyim bir məsələ də var ki, o barədə bir-iki kəlmə ilə oxucularının vaxtını almaq istərdim. O da ibarətdi bizim "sevimli müxalifətimiz"in qeyri-adi uzunömürlülüyündən.***

Bilmirəm, mən yanılıram, ya yox, amma dünyada bizim müxalifətimiz qədər uzunömürlü müxalifətin olduğuna inanmıram. Düşünürəm ki, əgər dünyada müxalifətin uzunömürlülük müsabiqəsi keçirilsəydi, bizim müxalifətimiz şəriksiz birinci yeri tutardı. Buna mən də, yəqin ki, oxucular da şübhə etmirik. Bu ölkə müstəqilliyini əldə edəndən sonra çox sahələrdə birinci olub. Görünür, elə müxalifətimiz də bunu anladığından öz növbəsində belə bir birinciliyi qarşısına məqsəd qoyub. Zarafat deyil, düz iyirmi beş ildir ki, müxalifət düşərgəsini zəbt eləyib oturublar orda, yeni bir müxalifətin yaranması ehtimalı olan kimi, birləşib hücum çəkirlər, şərdən, şəbədədən tökürlər ortalığa (Bu məsələdə bizim müxalifət təcrübəli və bacarıqlıdı axı!), yerlərini bərkidib yenə başlayırlar ki, gələn seçkilərdə biz gəlirik hakimiyyətə. Hər dəfə seçkilərə start verilən kimi, düşürlər ortalığa, qəzetlərdə, sosial şəbəkələrdə milləti inandırmağa çalışırlar ki, biz gəlirik və ölkəni elə idarə edəcəyik ki, hamının evindəki krantdan süd axacaq, hamının unitazı (bağışlayın siz allah) qızıldan olacaq, daha nə bilim, nələr. Onlar danışır, millət də əlini əlinə vurub, qəşş eləyir ki, a balam, gəldiniz də bir kərə, gördük elədiklərinizi! Amma deyəsən, elə anlamadığım, yavaş-yavaş anlamaq istədiyim müəmmanın cavabı da bundadı. Yəni bir dəfə bu millətə yağlı, qaymaqlı, ballı vədlərdən gubbuldadıb hakimiyyətə gələnlər, bircə ilin içində ölkəni elə duruma gətirib çıxardılar ki, Ulu Öndər Heydər Əliyev kimi təcrübəli və qətiyyətli dünya şöhrətli siyasətçisi onların yaratdıqları problemləri həll edib, məmləkəti sakit məcraya yönləndirmək üçün nə az-nə çox, düz beş il vaxt sərf elədi. Elə ona görə də, millət onların danışdıqlarına ya qulaq asmır, ya da təsadüfən eşitsə də, arxasını çevirib gedir. Beləcə, bizim müxalifətin uzunömürlülük sirrinin bir tərəfini deyəsən anlayıram. Yəni məşhur bir misalda deyildiyi kimi, "millət bir kərə yanılar, ikinci kərə yanılmaq məhv olmağa bərabərdir". Və bu həqiqəti anlayan millət də onları hakimiyyətin heç kandarına da buraxmaq fikrində deyil. Belədirsə, bəs bu məxluqlar niyə çəkilib yerlərində oturmurlar? Dünyada heç bir siyasi təşkilat bu qədər müddətə müxalifətçilik etməz. Yəni bir-iki seçkidə mövqeyini ortaya qoyar, xalqı inandırıb hakimiyyətə gəlmək istəyər, elə ki, bu bir-iki seçkidə xalq ona etimad göstərmədi, çəkilər qınına, biznesi ilə, filanla məşğul olar. Biznes demişkən, görünən odur ki, bizim müxalifətimiz siyasəti özünün biznrs bazarına çevirib. Yəni nə qədər Azərbaycanı sevməyən qüvvələr var, müxalifətimiz onlarla girir biznes sövdələşməsinə. Amma yaxşı da qazanırlar. Yoxsa hardan alırlar o qədər pulu ki, uşaqlarının səsi Amerikanın, İngiltərənin ən bahalı universitetlərindən, restoranlarından gəlir! Aha, deyəsən, anlamadığımı anlamağa başladım. Bizim müxalifət siyasətlə deyil, bizneslə məşğuldur. Biznesin də yazılmamış bir qanunu var, sənin sahənə başqalarının girməsinə mane olmalısan. Çünki o, başqası sənin gəlirinə şərik olacaq. Elə buna görə də, bizim müxalifətimiz ölkədə yenilənmiş, yeni düşüncəyə malik siyasi qüvvələrin meydana girməsinə imkan vermir. Axı bura onun biznes sahəsidir. Mən müxalifətimizin uzunömürlülüyünün sirrini artıq anladım. Düşünürəm ki, oxucular da anladılar. Bircə qaldı müxalifət donunda meydana girən bu arxiv qoxulu siyasilərin anlaması ki, belə biznesin sonu siyasi iflasdır, yəni siyasi "bankrot"! Bir də məsləhətimiz budur ki, danışanda hakimiyyət nümayəndələrinin "inhisarçılıq fəaliyyəti"(?) barədə söhbət açmasınlar. Adama deyərlər, inhisarçılıq pisdirsə sən niyə müxalifətçilik inhisarı yaratmısan? Soruşarlar və verməyə cavabları da olmaz. Odur ki, biznesinizdə olun, bir az da ehtiyatı əldən verməyin. Allah bazarınızı bərəkətli et(mə)sin... Bir də siyasi müxalifət ömrünüz uzun olsun!

# Vicdan azadlığı hüququnun tarixindən

***İnsanın şəxsi əqidəyə (hətta yanlış olsa belə), təkrarsız daxili aləmə malik olmaq hüququnu dərk etməsi Qərbi Avropanın ictimai şüurunda dini reformasiya uğrunda kütləvi hərəkat dövründə yayılmağa başlamışdır. Burada çoxsaylı protestant cərəyanlarının və təriqətlərin meydana gəlməsi, təriqətçilərin öz əqidələrini inadkarlıqla müdafiə etməsi cəmiyyətdə dini dözümlülük ideyasının yaranmasına, vahid dövlət dininin tətbiqindən imtina edilməsinə səbəb oldu. Hələ Birinci İngiltərə inqilabının gedişində independent və leveller partiyaları əsas tələblərdən biri kimi etiqad azadlığını irəli sürürdülər.***

Lokkun "Dini düzümlülük haqqında" məktubu demokratik ədəbiyyatın klassik əsərlərindən hesab olunur. İnsanın öz müqəddəratını təyin etməsinin tərəfdarı olan Lokk dini etiqad azadlığını dövlətin insanı məhrum edə bilməyəcəyi əsas "təbii hüquqlar"dan biri kimi qəbul edirdi. Lokk "Dini dözümlülük haqqında" məktubu 1685-ci ildə Hollandiyada mühacirətdə olarkən yazmışdır. Məhz bu vaxt Fransa kralı XIV Lüdovik protestantlara dini etiqad azadlığı verən Nant Ediktini ləğv etmiş, bunun nəticəsində Fransanı 200 minə yaxın protestant tərk etmişdi. "Dini dözümlülük haqqında" məktub İngiltərə inqilabının qələbəsindən və ingilis demokratlarının bir neçə nəslinin uğrunda uzun müddət mübarizə apardığı "Dini dözümlülük haqqında" akt qəbul olunandan sonra - 1698-ci ildə İngiltərədə dərc olunmuşdur. Lokk "Dini dözümlülük haqqında" məktubunda qızğınlıqla kilsənin dövlətdən ayrılması və dini etiqad azadlığı uğrunda çıxış edib. Lokkun fikrincə, bu azadlıq yalnız protestant təriqətlərinə aid olmalı və katoliklərə şamil edilməməli idi. İngiltərədə katoliklərin və yəhudilərin şəxsi və siyasi hüquqlarının məhdudlaşdırılması ondan sonra 150 il davam etmişdir.

C.Lokk "Dini dözümlülük haqqında" məktubunda yazırdı: "Əgər insanları od və qılıncla məlum ehkamlara etiqad etməyə və onları yad ibadətləri yerinə yetirməyə məcbur etmək lazım gəlirsə və bu zaman onların mənəviyyatı haqqında fıkirləşilmirsə, əgər kimsə başqa dinə qulluq edənləri inanmadıqları şeyə etiqad etməyə məcbur edərək öz dininə döndərirsə, İncilin ona inanan xristianlara icazə vermədiyi şeyləri etməyə imkan yaradırsa, onda mən şübhə etmirəm ki, belə adam özünün etdiyinə etiqad bəsləyənlərdən ibarət böyük insan kütləsi əldə etməyə çalışır; lakin kim inanar ki, o, xristian kilsəsi yaratmaq istəyir?..

Və qoy heç kəs xristianlığa bu qədər yad olan amansız təqibləri dövlətə qayğı və qanunların yerinə yetirilməsi adı altında gizlətməsin və əksinə, qoy heç kəs başqa dinə istinadla pərdələnərək özü üçün tam hərəkət azadlığı və cəzasızlıq mühiti yaratmağa çalışmasın".

Hər şeydən əvvəl mən dövlət məsələləriylə dini məsələləri bir-birindən fərqləndirməyi, kilsə və dövlət arasında həddi lazımi dərəcədə müəyyənləşdirməyi vacib sayıram. Əgər bu edilməsə, onda ruhun xilasını, yaxud dövlətin xeyrini üzünə ya doğrudan da əziz sayan, ya da yalandan göstərən adamlar arasında mübahisələrə son qoymaq mümkün olmayacaqdır. Dövlət, məncə, yalnız mülki nemətləri qorumaq və artırmaq üçün qurulmuş insanlar toplumudur. Mülki nemətlər dedikdə, mən həyat, azadlıq, bədən sağlamlığı və fiziki iztirabların olmamasını, torpaq, pul, avadanlıq və s. kimi zahiri şeylərə malik olmağı nəzərdə tuturam. Bu gündəlik həyata məxsus olan şeylərə həm bütün xalqın, həm də hər bir vətəndaşın ayrılıqda hüququnun təmin edilməsi və tam qorunması hamı üçün mütləq olan qanunlara arxalanan mülki hökmdarın borcudur. Hökmdarın bütün yurisdiksiyasının yalnız bu mülki nemətlərə şamil edilməsini və heç bir halda ruhun xilasına şamil olunmaması və oluna bilməməsini, məncə, aşağıdakılar aydın göstərir: Birincisi, ruhun xilası haqqında qayğı, mülki hökmdara heç də başqalarından daha artıq aid deyildir. Allah bunu ona tapşırmamışdır, çünki heç yerdə deyilmır ki, Allah insanlara başqalarını, zorla yad dinə döndərmək hüququ vermişdir. Və adamlar da hökmdara bu cür hakimiyyət verə bilməzlər, çünki o təbəənin əbədi xilas qayğısına bu dərəcədə laqeyd qala bilməz ki, istər hökmdarın, istərsə məsləhət bildiyi sitayişə ya dini müti şəkildə qəbul etsin.

Çünki heç kəs başqasının göstərişi ilə (hətta istəsə belə) inana bilməz, axı, əsl və xilasedici dinin gücü və mənası məhz etiqaddadır.

İkincisi, ruh haqqında qayğı mülki hökmdara aid edilə bilməz, çünki onun bütün hakimiyyəti məcburiyyətə əsaslanır. Əsl və xilasedici din isə ruhun dərin daxili inamından ibarətdir, onsuz Allahın gözündə heç nə güclü deyildir, insan ağlının təbiəti elədir ki, heç bir xarici qüvvə onu nəyəsə məcbur edə bilməz.

Lakin sən deyə bilərsən ki, hökmdar ağlın dəlillərindən istifadə edə və bununla da başqa dinə inananları həqiqətə tərəf döndərə və onları xilas edə bilər. Qoy belə olsun, ancaq o, burada digərlərindən heç nə ilə fərqlənmir, əgər nəsihət verməyə, yol göstərməyə və ağlın dəlilləri ilə azmışları həqiqət yoluna dəvət etməyə başlasa, hər bir vicdanlı adamın etməli olduğunu edəcəkdir.

Üçüncüsü, ruhun xilas edilməsi haqqında qayğı heç bir halda mülki hökmdara aid ola bilməz, əgər razılaşsaq da ki, qanunların nüfuzu və cəzanın gücü ağlın döndərilməsinə yardım edərək kəsərli ola bilərdi, hətta bu da ruhun xilas edilməsinə yardımçı ola bilməzdi. Çünki əgər yalnız dinlərdən biri həqiqətdirsə, yalnız bir yol əbədi xoşbəxtliyə aparırsa, onda adamlara yalnız bir imkan verilirsə, ümid varmı ki, haqq yoluna daha çox adam gələcəkdir: ağlın və vicdanın tələblərinin əksinə olaraq hökmdarın inandığı təlimə kor-koranə riayət etmək və yalnız əcdadların göstərdiyi qaydada Allaha sitayiş etmək haqdırmı?

İndi baxaq görək kilsə nə deməkdir? Mənə görə, kilsə insanların azad birliyidir. Onlar könüllü birləşiblər ki, birlikdə, öz əqidələrinə görə düzgün yolla Allaha sitayiş etsinlər. Onlar əmindirlər ki, bu yola onları Allah gətirib və ruhların xilas olmasına yardım edəcəkdir.

Mən təkrar edirəm ki, bu, azad və könüllü birlikdir. Heç kəs hansısa kilsənin üzvü kimi doğulmur, yoxsa dədə-babaların inamı torpaq mülkiyyəti ilə birlikdə varislik hüququ əsasında keçərdi və hər kəs inamına görə öz doğumuna borclu olardı; bundan cəfəng şey düşünmək mümkün deyil. İş belədir. Əvvəldən heç bir kilsəyə, heç bir sektaya bağlanmamış insan könüllü olaraq elə birliyə qoşulur ki, orada Allaha xoş gələn, əsl dini və ayinləri tapdığına inanır. Onun orada tapdığı xilasa ümid kilsəyə daxil olması üçün yeganə səbəbdir, insanın orada qalıb-qalmaması da məhz bu ümidlə müəyyənləşdirilir. Əgər o, birdən təlimdə nə isə yanlışlıq, yaxud ayinlərdə uyğunsuzluq aşkar edərsə, onda mütləq elə hüquqa malik olmalıdır ki, oraya sərbəst daxil olduğu kimi, istənilən vaxt da sərbəst çıxa bilsin.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

İnsanın şəxsi əqidəyə (hətta yanlış olsa belə), təkrarsız daxili aləmə malik olmaq hüququnu dərk etməsi Qərbi Avropanın ictimai şüurunda dini reformasiya uğrunda kütləvi hərəkat dövründə yayılmağa başlamışdır. Burada çoxsaylı protestant cərəyanlarının və təriqətlərin meydana gəlməsi, təriqətçilərin öz əqidələrini inadkarlıqla müdafiə etməsi cəmiyyətdə dini dözümlülük ideyasının yaranmasına, vahid dövlət dininin tətbiqindən imtina edilməsinə səbəb oldu. Hələ Birinci İngiltərə inqilabının gedişində independent və leveller partiyaları əsas tələblərdən biri kimi etiqad azadlığını irəli sürürdülər.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə
25 aprel

## Mario İzola: Bakıda yürüşə yenidən nəzər salmalı olacağıq

"Pirelli" şirkətinin avtoyürüş bölməsinin rəhbəri Mario İzola qarşıdakı yürüş barədə fikirlərini bölüşüb. O deyib: "Bu mövsümdə şin ustaları Bakıya yetərincə yumşaq tərkibli rezin gətirəcəklər. Əvvəlki iki ildə komandalar bu şəhər trasına hədsiz mühafizəkar yanaşmadan gileylənirdilər. Digər tərəfdən, Formula 1 Azərbaycan Qran-Prisi əvvəllər iyun ayında keçirilirdi. Bu dəfə isə həmin tədbir apreldə keçiriləcək. Hava çox da isti deyil, buna görə şinlərin özünü necə göstərəcəklərini faktiki olaraq heç kəs bilmir.

AZƏRTAC xəbər verir ki, Mario İzolanın fikrincə bu dəfə hamı Azərbaycan Qran-Prisinə yeni mövqedən baxmalı olacaq, çünki indi yürüşlər əvvəlki ilə müqayisədə iki ay tez keçirilir. Hava şəraiti baxımından, yəqin ki, müəyyən təzadlar olacaq, çünki əvvəlki yürüşlərdə trasın hərarəti bəzən 50 dərəcədən yüksək olurdu.

Mario İzola daha sonra deyib: "Keçən il şinlər üçün yeni reqlament ilk dəfə tətbiq ediləndə başa düşdük ki, şinlərin tərkibinin seçilməsində hədsiz mühafizəkarlığa yol vermişik, faktiki olaraq heç kəs "Medium" şinlərindən istifadə etməmişdi. Ona görə başa düşürdük ki, bu il daha ciddi seçim etməliyik. Bunun sayəsində yürüşdə üç tərkibin hər hansı birindən istifadə etmək üçün real imkan olmalıdır. Bu halda biz Bəhreyndə və Çində keçirilmiş son iki Qran-Pri yürüşlərində olduğu kimi maraqlı strategiyaların şahidi ola biləcəyik".

## Elan

21.02.2018-ci il tarixində 3500813671 saylı qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış "AĞSU AQROPARK" Məhdud Məsuliyyətli Cəmiyyəti təşkilati-hüquqi formasının dəyişdirilərək, "AĞSU AQROPARK" qapalı səhmdar cəmiyyətinə çevrilərək, yenidən təşkil olunduğunu elan edir.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə monitorinq və qiymətləndirmə ixtisası üzrə II tədris ilinin magistrantı Səfərova Günel Bəymənməd qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Cahangirli Kəmalə Çingiz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Məmmədova Aynur İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

**"GÜLAY" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!**

12 iyun 2018-ci il tarixdə saat 10.00-da "GÜLAY" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlik məsələlər:

1. Cəmiyyətin 2017-ci il üçün illik balansının və hesabatının təsdiqi;
2. Dividentlərin ödənilməsiə dair;
3. "Gülay" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsinə dair;
4. "Gülay" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi ilə əlaqədar ləğetmə komissiyasının yaradılmasına dair;
5. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Səhmdarlar sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək İdarə Heyətinin sədrinə müraciət edə bilərlər.

Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 31
Əlaqə telefonu: 055 783 97 64

**"GÜLAY" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri H.Rzayev**

## Başsağlığı

"Azərbaycan Fermeri" qəzetinin kollektivi Nuhəli Kərimova bacısı
**Kifayət xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

## Azərbaycanın gimnastika komandası "AGF Junior Trophy" beynəlxalq turnirinin bürünc medalını qazanıb



Aprelin 23-də Milli Gimnastika Arenasında keçirilən gənc gimnastların iştirak etdikləri "AGF Junior Trophy" beynəlxalq turnirinin birinci günündə 2003-2005-ci il təvəllüdlü gimnastların yaş qrupunda komandalar arasında qaliblər müəyyənləşib. AZƏRTAC xəbər verir ki, Azərbaycan yığma komandası 89,250 xal toplayaraq turnirin bürünc medalına layiq görülüb.

Bu yaş qrupunda birinci yeri 100,900 xalla Rusiya komandası tutub. Belarus millisi isə 93,300 xalla gümüş medala sahib olub.

Turnirin birinci günündə bədii gimnastika üzrə Azərbaycan millisinin üzvləri Dərya Farşbafşəhriyari və Arzu Cəlilova fəxri kürsünün üçüncü pilləsinə qalxıblar. Azərbaycanın ikinci komandası isə 88,300 xalla komanda hesabında beşinci yerdə qərarlaşıb. Gimnastımız Arzu Cəlilova "Ən yüksək icra xalına görə" hakimlər briqadası tərəfindən "AGF Trophy" mükafatı ilə təltif edilib. "AGF Junior Trophy" turniri iyunun 1-3-də İspaniyanın Quadalaxara şəhərində keçiriləcək bədii gimnastika üzrə Avropa çempionatı formatında təşkil edilib. Turnirdə 18 ölkədən idmançı iştirak edir.

## Karateçilərimiz İstanbulda üç qızıl medal qazanıblar




İstanbulda karate üzrə doqquzuncu şotokan dünya çempionatı keçirilib. AZƏRTAC xəbər verir ki, "şobu İppon", "WKF kumite" və "sambom kumite" versiyaları üzrə keçirilən yarışda 31 ölkənin idmançıları iştirak ediblər.

Ölkəmizi təmsil edən "Qaraqaplan" klubunun idmançıları Mədinə Kazımova (25 kq-dan yuxarı) və Yusif Cəfərov (30 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Digər təmsilçimiz Orxan Musayev isə komanda kumite yarışlarında birinci olub.

## Sneyder bu il Hollandiya millisi ilə vidalaşır



Hollandiya millisinin futbolçusu Uesli Sneyder bu il yığmadakı karyerasını başa vuracaq. Hollandiya Futbol Federasiyasının saytında yer alan xəbərə görə, 34 yaşlı yarımmüdafiəçi sentyabrın 6-da Peru ilə yoldaşlıq matçında yığmada son oyununu keçirəcək. Qeyd edək ki, hazırda Qətərin "Əl-Qarafa" klubunda çıxış edən Sneyder 2003-cü ildən Hollandiya millisində oynayır.

## "Barselona" Ardanı satır?



"Barselona" "Başakşəhər"ə icarəyə verdiyi Arda Turanı bu yay sata bilər. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, Kataloniya təmsilçisi türk yarımmüdafiəçini Çin klublarından birinə satmağa hazırlaşır. "Barsa" bu transferdən 15 milyon avro qazanmaq istəyir. Qeyd edək ki, İspaniya klubu Ardanı bu qış "Başakşəhər"ə 2.5 il müddətinə icarəyə verib. Ancaq 31 yaşlı oyunçunun müqaviləsində "Barsa"nın onu bu müddətdə başqa kluba satmaq hüququ barədə maddə yer alıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**